## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VYANADA AVSTRİYANIN FEDERAL KANSLERİ SEBASTİAN KURTS İLƏ GÖRÜŞÜB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Vyanada Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurts ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Federal Kansler Sebastian Kurts Prezident İlham Əliyevi qarşılayıb. Prezident İlham Əliyev və Federal Kansler Sebastian Kurts birgə foto çəkdiriblər...



Bax səh. 2

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA DİPLOMATİK MİSSİYA RƏHBƏRLƏRİNİN HƏYAT YOLDAŞLARI İLƏ GÖRÜŞÜB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 29-da Bakıda diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşüb. AZƏRTAC xəbər verir ki, ölkəmizdə akkreditə olunan diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşməkdən şad olduğunu bildirən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva deyib...



Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 30 mart 2019-cu il, şənbə / № 056 (5431). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# President İlham Əliyev Avstriyaya işgüzar səfər edib



*Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin Vyanada görüşü olub*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Bakı şəhərinin Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi haqqında Sərəncam imzalayıb.

### Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat yayıblar

Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat yayıblar. AZƏRTAC xəbər verir ki, ATƏT-in rəsmi saytında yerləşdirilən bəyanatda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Vyanada ilk dəfə görüşdükləri bildirilir. Qeyd olunur ki, görüşdə hər iki ölkənin xarici işlər nazirləri Elmar Məmmədyarov və Zohrab Mnatsakanyan, ATƏT-in fəaliyyətdə olan...

Bax səh. 3

### Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi münasibətilə "Buta" sarayında təntənəli tədbir keçirilib

Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanları əməkdaşlarının peşə bayramı münasibətilə martın 28-də...




Bax səh. 3

### Azərbaycan Dillər Universitetində Macar Dili və Mədəniyyəti Mərkəzi açılıb

Martın 29-da Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ölkəmizə səfəri çərçivəsində Azərbaycan Dillər Universitetində (ADU) olub. AZƏRTAC xəbər verir ki, ADU-nun rektoru, akademik Kamal Abdulla nazir Peter Siyartonu universitetdə görməkdən şad olduğunu deyib. Rektor nazirin Azərbaycana səfərinin iki xalq arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafı üçün faydalı olduğunu söyləyib. Kamal Abdulla nazirin şəxsən iştirakı ilə universitetdə Macar Dili və Mədəniyyəti Mərkəzinin açılmasının əlamətdar hal olduğunu...

Bax səh. 4

# Prezident İlham Əliyev Vyanada Rusiyanın TASS informasiya agentliyinə müsahibə verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Vyanada Rusiyanın TASS informasiya agentliyinə müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müxbirin Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqları barədə sualına cavabında Azərbaycan Prezidenti İlham Əliyev deyib:

- Bildiyiniz kimi, xarici işlər nazirləri bir neçə raund danışıqlar aparıblar. Görüş ona görə mühümdür ki, məsələnin mahiyyəti ilə bağlı danışıqlar prosesinə yeni start verilib. Biz etimadı, ola bilsin ki, insanlar arasında təmaslar çərçivəsində möhkəmləndirməklə bağlı məsələləri müzakirə etdik. Bundan əvvəl ictimaiyyət nümayəndələri arasında təmaslar olub. Yəni, hələ bu barədə danışmaq tezdir, lakin humanitar məsələlərə gəldikdə, bu, nəzərdə tutulur. Çünki danışıqlar prosesi təbii ki, həm də humanitar aksiyalarla dəstəklənməlidir. Lakin mən hesab edirəm, əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar uzun illər olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında aparılır. İkincisi, danışıqlar prosesinə yeni təkan verilib. Bu da vacibdir. Biz Minsk qrupunun həmsədrlərinin 9 mart tarixli bəyanatını, - siz yəqin ki, onunla tanışsınız, - çox müsbət qiymətləndirdik. Orada deyilir ki, danışıqlar formatının dəyişdirilməsi yalnız iki tərəfin razılığı ilə ola bilər. Azərbaycan tərəfi təbii ki, buna razılıq vermədi. Ona görə də biz prinsipcə substantiv danışıqların davam etdirilməli olduğu vəziyyətə qayıtdıq. Xarici işlər nazirlərinə tapşırıqlar verilib. Onlar çox güman ki, nəticəyə yönələn danışıqlar prosesini davam etdirmək üçün yaxın vaxtlarda görüşəcəklər. Bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur.

**Müxbir:** Çox sağ olun, cənab Prezident.

### MSK sədrinin başçılıq etdiyi nümayəndə heyəti Ukraynada prezident seçkilərini müşahidə edəcək

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Ukraynada keçiriləcək prezident seçkilərini müşahidə etmək üçün martın 29-dan...



Bax səh. 4

### Azərbaycanın Baş naziri Macarıstanın xarici işlər və ticarət nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov martın 29-da ölkəmizdə səfərdə olan Macarıstanın...



Bax səh. 4

### Milli Məclisin növbəti iclası keçirilib

Martın 29-da Milli Məclisin növbəti iclası keçirilib. Spiker Oqtay Əsədov iclası açıq elan etdikdən sonra ilk olaraq Milli Məclisin İnsan hüquqları komitəsinin üzvünün seçilməsi haqqında qərar layihəsi...



Bax səh. 4

### UNESCO-nun baş qərargahında "Bakı Prosesi" beynəlxalq işçi qrupunun iclası keçirilib

UNESCO baş qərargahında Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə "Bakı Prosesi" beynəlxalq işçi qrupunun iclası keçirilib...



Bax səh. 3

### *Cavanşir Paşazadə:* Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı

Prezident İlham Əliyevin Nizami rayonundakı ticarət mərkəzində baş verən yanğın hadisəsini dərhal ciddi nəzarətə götürməsi, zərərçəkən...



Bax səh. 5

# Prezident İlham Əliyev Avstriyaya işgüzar səfər edib

## Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin Vyanada görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Ermənistan-Azərbaycan münaqişəsinin həllini müzakirə etmək üçün Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın təkbətək görüşü keçirilib.

Sonra görüş ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam edib.

## Azərbaycan Prezidenti İlham Əliyevin Avstriyanın Federal Prezidenti Aleksander Van der Bellen ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellen ilə görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Federal Prezident Aleksander Van der Bellen Prezident İlham Əliyevi qarşılayıb.

Prezident İlham Əliyev və Federal Prezident Aleksander Van der Bellen birgə foto çəkdiriblər.

Avstriyaya səfirindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı qonaqpərvərliyə və Ermənistanın baş naziri ilə görüşə ev sahibliyi etdiyinə görə Avstriya tərəfinə minnətdarlığını bildirib. Prezident İlham Əliyev Azərbaycanın Avstriya ilə ikitərəfli əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiyini vurğulayıb.

Federal Prezident Aleksander Van der Bellen Azərbaycan ilə Avstriya arasında möhkəm dostluq əlaqələrinin mövcudluğunu qeyd edərək bu səfərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmli olduğunu deyib.

Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün Birgə Əməkdaşlıq Şurasının təsis olunduğunu və onun Vyanada ilk iclasının keçirildiyini deyərək bu formatda əməkdaşlığın ticarət dövriyyəsinin artırılmasına və Avstriya şirkətlərinin Azərbaycanda daha da fəal çalışmalarına imkan yaradacağına ümidvar olduğunu bildirib. Dövlətimizin başçısı Avstriyanın Federal Prezidentinə ölkəmizin təşəbbüsü ilə regionda reallaşdırılan nəqliyyat layihələri barədə məlumat verərək Avstriya şirkətlərinin də bu nəqliyyat infrastrukturu imkanlarından istifadə edə biləcəyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## Azərbaycan Prezidenti İlham Əliyev Vyanada Avstriyanın Federal Kansleri Sebastian Kurts ilə görüşüb




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Vyanada Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurts ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Federal Kansler Sebastian Kurts Prezident İlham Əliyevi qarşılayıb.

Prezident İlham Əliyev və Federal Kansler Sebastian Kurts birgə foto çəkdiriblər.

Sonra Prezident İlham Əliyevin Federal Kansler Sebastian Kurts ilə təkbətək görüşü olub.

Prezident İlham Əliyev Avstriyada olmasından məmnunluğunu vurğulayaraq səfərin təşkilinə və dəvətə görə Federal Kansler Sebastian Kurtsa təşəkkürünü bildirdi və onu ölkəmizə səfərə dəvət edib.

Ermənistanın baş naziri ilə Vyanada keçirdiyi görüş barədə Federal Kanslerə məlumat verən dövlətimizin başçısı bu görüşün təşkilinə görə də Avstriya tərəfinə minnətdarlığını ifadə edib, Avstriyanın bu qəbildən olan görüşlərin təşkilində və keçirilməsində böyük təcrübəyə malik olduğunu söyləyib. Azərbaycan ilə Avstriyanın yüksək səviyyəli siyasi əlaqələrinin mövcudluğunu diqqətə çatdıran Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi-ticarət, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb.



Söhbət zamanı Avstriya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyi qeyd edilib. Həmçinin Azərbaycanda regionların iqtisadi inkişafı üzrə beşillik müddəti əhatə edən proqramın qəbul olunduğu bildirilib, bu proqram əsasında Avstriya şirkətlərinin də Azərbaycan ilə əməkdaşlıq imkanlarına toxunulub.

Görüşdə, eyni zamanda, Azərbaycan-Avropa İttifaqı əlaqələrindən bəhs edilib, Avstriyanın bu münasibətlərin inkişafını dəstəklədiyi ifadə olunub. Məhz Avstriyanın sədrliyi dövründə Azərbaycan ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq Prioritetləri sənədinin imzalandığı qeyd edilib. Eyni zamanda, Avstriya ilə Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlığın vacibliyi vurğulanaraq Avstriya şirkətlərinin Azərbaycanın regionda yaratdığı nəqliyyat infrastrukturundan faydalana biləcəyi bildirilib.

Azərbaycan Prezidentinin dəvətini məmnunluqla qəbul edən Federal Kansler Sebastian Kurts Avstriyanın ölkəmizlə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayıb.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

# Birinci vitse-prezident Mehriban Əliyeva diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşüb





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 29-da Bakıda diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, ölkəmizdə akkreditə olunan diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşməkdən şad olduğunu bildirən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva deyib: **"Hörmətli xanımlar.**

**Əziz dostlar.**

**Əziz xanım səfirlər.**

**Mən sizi görməyimə çox şadam və hər birinizi səmimi qəlbdən salamlayıram. Bir az gec də olsa, sizinlə birlikdə Novruz bayramını qeyd etmək mənim üçün çox xoşdur.**

**Novruz Azərbaycanın ən sevimli, ruzili və nurlu bayramıdır. Novruz baharın, dirçəlişin simvoludur. Adətən Azərbaycanda Novruz bayramı ailə üzvləri ilə, dostlarla birlikdə bayram süfrəsi arxasında qeyd olunur. Bizim bugünkü görüşümüz də məhz dostluğun, qarşılıqlı hörmətin təzahürüdür.**

**Əziz qonaqlar, mən sizi bayram münasibətilə ürəkdən təbrik edirəm, sizə və ailə üzvlərinizə möhkəm cansağlığı, xoşbəxtlik, təmsil etdiyiniz ölkələrə sülh və əmin-amanlıq arzulayıram.**

**Siz xeyli vaxtdır ki, Bakıda yaşayırsınız. Ümidvaram ki, Azərbaycanda olduğunuz müddətdə ölkəmizi tanımaq və sevmək imkanınız olub. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biri kimi tanınır. Paytaxtımızın simasında Qərb və Şərq, qədimlik və müasirlik vəhdət təşkil edir. Azərbaycan qədim tarixə, mədəniyyətə, ənənələrə malik olan ölkədir. Eyni zamanda, biz müasir, dünyaya açıq, sülhsevər, daim əməkdaşlıq və inkişaf naminə çıxış edən ölkəyik. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Əsrlərboyu Azərbaycan torpağında müxtəlif dinlərin və millətlərin nümayəndələri dostluq və sülh şəraitində yaşayıblar. Minilliklərlə formalaşan bu tolerantlıq və multikulturalizm ənənələri bu gün də Azərbaycan dövlətinin siyasətində öz əksini tapır və hər bir azərbaycanlının qəlbində yaşayır. Mən əminəm ki, siz Azərbaycanın ən böyük sərvəti olan insanlarımızın qonaqpərvərliyini, istiqanlılığını, səmimiliyini, insansevərliyini hiss etmisiniz. Ümidvaram ki, siz ölkəmizi tərk etdikdən sonra da Azərbaycan sizin qəlbinizdə xoş anlarla, sevinc dolu xatirələrlə yaşayacaq və yenidən ölkəmizə səfər etməyi unutmayacaqsınız.**

**Hörmətli xanımlar, 2019-cu il Azərbaycan üçün uğurla başlayıb. Bildiyiniz kimi, ölkəmizdə çox vacib islahatlara start verilib, həm iqtisadi sahədə, həm sosial sahədə. Bu gün atılan bütün addımlar Azərbaycanın gələcək uğurlu inkişafını təmin edəcək.**

**Çox xoş haldır ki, ölkəmizdə xarici səfirliklərin sayı artmaqdadır. Bu gün Azərbaycanda 65 diplomatik nümayəndəlik, 13 beynəlxalq təşkilat və 4 baş konsulluq fəaliyyət göstərir. Təmsil etdiyiniz ölkələrlə Azərbaycan qarşılıqlı maraq və hörmət əsasında əməkdaşlıq qurub və bu əlaqələr inkişaf etdirilir. Bu gün Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır.**

**Hörmətli xanımlar, fürsətdən istifadə edərək mən sizin fəaliyyətinizi xüsusi vurğulamaq istərdim. Ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, Azərbaycanda humanitar, sosial sahələrdə icra olunan layihələrə dəstək verdiyinizə görə sizə dərin minnətdarlığımı bildirirəm.**

**Ölkələr və xalqlar arasında səmimi münasibətlərin formalaşmasında humanizm, xeyirxahlıq, insanlıq diplomatiyasını heç bir şey əvəz edə bilməz və mən buna görə sizə bir daha öz dərin minnətdarlığımı bildirirəm.**

**Hörmətli xanımlar, qoy bu bahar sizin üçün nurlu olsun, sizə xoşbəxtlik gətirsin. Mən sizə hədsiz xoşbəxtlik, cansağlığı, təmsil etdiyiniz ölkələrə və xalqlara əmin-amanlıq, sülh arzulayıram.**

**Çox sağ olun və bir daha xoş gəlmisiniz".**



* * *

Görüşdə Moldovanın Azərbaycandakı səfirinin xanımı Alla Leuka "HOMS Qrupu" kimi tanınan diplomatik missiya rəhbərlərinin həyat yoldaşları adından çıxış etməyin onun üçün şərəf olduğunu deyərək Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşə, "HOMS"un fəaliyyətinə verdiyi dəyərə və Novruz bayramı münasibətilə təbriklərinə görə təşəkkürünü bildirib. Azərbaycanda çox sayda Novruz tədbirlərində iştirak etdiklərini, Novruzun sərhədləri aşaraq insanları birləşdirdiyini, bizə oxşar cəhətlərimizi və müxtəlifliyimizin zənginliyini xatırladığını, hörmət, sülh və mehriban qonşuluğa əsaslanaraq xalqlar arasında əlaqələri gücləndirdiyini vurğulayıb. Qeyd edib ki, o, Novruz ruhunu Azərbaycanda bütün ilboyu hiss edir.

**"Beynəlxalq ictimaiyyətin üzvləri olaraq biz ev sahibi olan ölkənin cəmiyyətinin açıqlığı, dostluğu, qonaqpərvərliyini hər zaman hiss edirik. Azərbaycan xalqı istiqanlı və səxavətlidir. Biz zəngin tarixə və mədəniyyətə, güclü harmoniya, birgəyaşayış və tolerantlıq ruhuna malik olan, dinamik inkişaf edən və gələcəyə inamla baxan bu gözəl ölkədə olmaqdan xoşbəxtik",** - deyən Alla Leuka təmsil etdikləri "HOMS" təşkilatının gördüyü işlərdən danışıb, humanitar sahədə fəaliyyətlərini davam etdirəcəklərini vurğulayıb. Bildirib ki, bu cür görüşlər beynəlxalq ictimaiyyətlə ev sahibi olan ölkənin rəhbərliyi və xalqı arasında əlaqələri gücləndirməyin daha bir yoludur. Alla Leuka Novruz bayramı münasibətilə bir daha təbriklərini çatdırıb, bütün insanlara dostluq və firavan həyat arzulayıb.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

* * *

Qeyd edək ki, bu gün ölkəmizdə həyata keçirilən uğurlu xarici siyasət kursunun fonunda Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi getdikcə güclənməkdədir. Azərbaycan xarici siyasətdə dostluq və qarşılıqlı etimad prinsiplərinə söykənir. Buna görə də ölkəmiz beynəlxalq miqyasda ikitərəfli və çoxtərəfli münasibətlər kontekstində etibarlı strateji tərəfdaşlardan birinə çevrilib. Bunun nəticəsidir ki, Azərbaycanla daha çox ölkə əməkdaşlıq etmək arzusundadır. Həmin faktı Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin diplomatik missiyalarının sayı bir daha təsdiq edir.

# Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi münasibətilə "Buta" sarayında təntənəli tədbir keçirilib




Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanları əməkdaşlarının peşə bayramı münasibətilə martın 28-də "Buta" sarayında təntənəli tədbir keçirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, hökumət nümayəndələri, hüquq mühafizə orqanlarının rəhbərləri, Azərbaycanın Milli qəhrəmanları, təhlükəsizlik orqanlarının veteranları, həmçinin 40 xarici xüsusi xidmət orqanının 160 rəhbər və təmsilçisi iştirak edib.

Yubiley tədbiri Azərbaycan Dövlət Xor Kapellasının ifasında dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov təntənəli tədbirin iştirakçılarını salamlayıb və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin şəxsi heyətlərinə təbrikini oxuyub.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev çıxış edərək təntənəli tədbirin iştirakçılarına, o cümlədən yubiley ilə əlaqədar Bakıya qonaq gələn tərəfdaş ölkələrin xüsusi xidmət orqanlarının rəhbərlərinə və nümayəndə heyətlərinə təşəkkürünü bildirib.

General-polkovnik Mədət Quliyev qeyd edib ki, ölkəmizin heyrətamiz tərəqqisi, mövcud sabitlik və təhlükəsizlik müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirilən siyasətin məntiqi parlaq nəticəsidir. Dövlətimizin başçısının düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan bu gün təhlükəsizlik baxımından dünyanın qabaqcıl dövlətləri ilə bir sırada dayanır. Azərbaycanın formalaşmış güclü təhlükəsizlik strategiyası ölkəyə etibarlı tərəfdaş və öz maraqlarını qorumağa qadir dövlət imici qazandırır. Dinamik inkişaf yolunda olan ölkəmizdə dilindən, dinindən, milliyyətindən, əqidəsindən asılı olmayaraq, bütün insanlar sülh və əmin-amanlıq şəraitində yaşayır və çalışır. Bu Azərbaycan xalqının və dövlətinin böyük nailiyyətidir.




General-polkovnik Mədət Quliyev Dövlət Təhlükəsizliyi Xidmətinin beynəlxalq əməkdaşlıq əlaqələrinin son illər daha fəal və səmərəli xarakter aldığını vurğulayıb. Bildirib ki, hazırda DTX dünyanın 70-dən artıq xüsusi xidmət orqanı ilə, eləcə də nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində ikitərəfli və çoxtərəfli formatda qarşılıqlı faydalı əməkdaşlıq edir. Tərəfdaşlıq yalnız informasiya və təcrübə mübadiləsi ilə deyil, bir çox hallarda birgə fəaliyyət və əməli kömək şəklində həyata keçirilir. Qürurverici haldır ki, dünyanın təhlükəsizlik sisteminin formalaşmasında Azərbaycanın da əməyi var.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev yubiley ərəfəsində Prezident İlham Əliyevin sərəncamları ilə bir qrup əməkdaşın dövlət mükafatlarına və ali zabit rütbələrinə layiq görülməsini Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinə növbəti dəfə verilən yüksək qiymətin bariz nümunəsi olduğunu qeyd edib. Xidmət rəisi göstərilən diqqət və qayğıya, həmçinin Azərbaycan təhlükəsizlik orqanlarının 100 illiyinin və bu orqanların əməkdaşlarının peşə bayramının yüksək səviyyədə keçirilməsinə şərait yaratdığına görə Ali Baş Komandana şəxsi heyətin adından dərin minnətdarlığını bildirib.

Xarici Kəşfiyyat Xidmətinin rəisi, general-leytenant Orxan Sultanov çıxışında Azərbaycan təhlükəsizlik orqanlarının təşəkkül tarixindən danışıb, Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzunun və mövqelərinin gündən-günə daha da möhkəmləndiyini xüsusi qeyd edib. General-leytenant Orxan Sultanov göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə Xarici Kəşfiyyat Xidmətinin şəxsi heyəti adından təşəkkürünü bildirib.

Təntənəli tədbir Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin, Dövlət Rəqs Ansamblının, "Qaya" dövlət vokal ansamblının, eləcə də respublikanın tanınmış incəsənət xadimlərinin ifasında bədii proqramla davam edib.

# Ticarət mərkəzindəki yanğından zərər çəkmiş sahibkarların müraciətləri dinlənilib



Martın 29-da İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin inzibati binasında "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar zərər çəkmiş sahibkarların problemlərinin öyrənilməsi məqsədilə İşçi Qrupu tərəfindən sahibkarların fərdi qaydada qəbuluna başlanılıb.

AZƏRTAC xəbər verir ki, qəbulda ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş hər bir sahibkarın problemləri fərdi qaydada dinlənilib, onlarla müzakirələr aparılıb, göstəriləcək dövlət dəstəyi tədbirləri diqqətə çatdırılıb.

İqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, ticarət mərkəzində baş vermiş yanğından zərər çəkmiş sahibkarlara dövlət tərəfindən müvafiq dəstək göstəriləcək. Qeyd edib ki, artıq dövlət başçısının Sərəncamı ilə baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi üçün Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan vəsait ayrılıb. Aprelin ilk həftəsindən etibarən zərər çəkmiş sahibkarlara bu vəsait hesabına maddi yardımın göstərilməsi nəzərdə tutulur. Bundan başqa, ticarət mərkəzindəki yanğından zərər çəkən sahibkarlara uzunmüddətli güzəştli kreditlər təklif olunur, onların istəyinə uyğun digər ticarət mərkəzlərində yerləşdirilmələri istiqamətində işlər aparılır.

İqtisadiyyat Nazirliyində yaradılmış İşçi Qrupu tərəfindən "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar zərərçəkmiş sahibkarların fərdi qəbulu martın 31-dək Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin inzibati binasında (ünvan: Atatürk prospekti 134, telefon: 012-404-04-01) davam etdiriləcək. Zərurət yaranacağı təqdirdə qəbul müddəti uzadılacaq.

Qeyd edək ki, martın 28-də Prezident İlham Əliyevin Sədrliyi ilə Bakının Nizami rayonundakı "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar müşavirə keçirilib. Müşavirədə dövlət başçısının verdiyi tapşırıqlara uyğun olaraq, zərər çəkmiş sahibkarlarla operativ əlaqələrin qurulması və onlara dəstək göstərilməsi işlərinin koordinasiyalı təşkili məqsədilə İqtisadiyyat Nazirliyində aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət İşçi Qrupu yaradılıb.

# Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat yayıblar




Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat yayıblar.

AZƏRTAC xəbər verir ki, ATƏT-in rəsmi saytında yerləşdirilən bəyanatda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Vyanada ilk dəfə görüşdükləri bildirilir. Qeyd olunur ki, görüşdə hər iki ölkənin xarici işlər nazirləri Elmar Məmmədyarov və Zohrab Mnatsakanyan, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak ediblər.

Bəyanatda vurğulanır ki, görüş müsbət və konstruktiv şəraitdə keçdi, hər iki liderin öz mövqelərinə aydınlıq gətirmək üçün imkan yarandı. Prezident və baş nazir tənzimləmə prosesinin bir sıra vacib məsələləri və substantiv ideyalar üzrə fikir mübadiləsi apardılar. Onlar sülh üçün əlverişli mühitin yaradılmasının və münaqişənin sülh yolu ilə həllinin tapılması üzrə danışıqlar prosesində konkret və tutarlı addımların atılmasının vacibliyini vurğuladılar.

Həmsədrlərin bəyanatında bildirilir ki, Prezident və baş nazir Düşənbədəki söhbətə istinad edərək atəşkəsin möhkəmləndirilməsinin və birbaşa əlaqə mexanizminin təkmilləşdirilməsinin vacibliyini yenidən təsdiq etdilər. Onlar öz ölkələrinin nazirlərinə yaxın gələcəkdə həmsədrlərlə yenidən görüşmək barədə təlimat verdilər, həmçinin birbaşa dialoqun davam etdirilməsi barədə razılığa gəldilər.

# UNESCO-nun baş qərargahında "Bakı Prosesi" beynəlxalq işçi qrupunun iclası keçirilib

UNESCO baş qərargahında Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə "Bakı Prosesi" beynəlxalq işçi qrupunun iclası keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, UNESCO Katibliyinin, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, ISESCO-nun rəsmiləri və işçi qrupunun digər üzvlərinin iştirakı ilə keçirilən iclasda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun proqramı və konsepsiya sənədləri müzakirə edilib.




Əbülfəs Qarayev qeyd edib ki, "Bakı Prosesi" Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilir və bu proses çərçivəsində son 10 ildə 4 dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 6 dəfə Bakı Beynəlxalq Humanitar Forum, Nazirlər Konfransları və digər beynəlxalq tədbirlər təşkil edilib. Bu proses BMT-nin baş katibi tərəfindən təşkilatın əsas platforması kimi elan edilib və bu baxımdan "Bakı Prosesi" və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal xarakter alıb.

UNESCO-nun rəsmisi, təşkilatın Mədəniyyətlərarası dialoq və tərəfdaşlıq departamentinin rəhbəri Maqnus Maqnusson təmsil etdiyi qurumun bu prosesin həyata keçirilməsində fəal iştirak etdiyini, bu prosesin əsas tərəfdaşlarından biri olduğunu və budəfəki forum çərçivəsində UNESCO tərəfindən 5 tədbirin təşkil ediləcəyini qeyd edib.

BMT-nin Sivilizasiyalar Alyansı, ISESCO, Avropa Şurasının rəsmiləri və Forumun ekspertlər qrupunun üzvü, Böyük Britaniyanın Koventri Universitetinin professoru Mayk Hardi Forumun proqramı ilə bağlı fikirlərini səsləndiriblər və qərara alınıb ki, proqram üzrə müzakirə mövzuları, plenar sessiyalar barədə son təkliflər aprelin 5-dək təqdim edilsin. Qeyd olunub ki, budəfəki Forum diskriminasiya, qeyri-bərabərlik və münaqişələrin qarşısının alınmasında dialoqun gücləndirilməsi mövzularını əhatə edəcək və bu çərçivədə mədəni müxtəlifliyin çoxtərəfli idarə olunması, gənclərin liderliyi və onların bu proseslərdə rolu, eyni zamanda, miqrasiya və insan təhlükəsizliyi məsələləri xüsusi əhəmiyyət kəsb edəcəkdir. Forum çərçivəsində, həmçinin Beynəlxalq Təşkilatların Rəhbərlərinin II Toplantısı və Nazirlər Konfransı da keçiriləcəkdir.

Sonda nazir Əbülfəs Qarayev 2017-ci ildə keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yekunlarını xatırladaraq növbəti Forumun prosesin davamı olaraq xüsusi yeniliklərlə yadda qalacağını və Forumun yekununda Fəaliyyət Planının qəbul ediləcəyini bildirib.

# Hesablama Palatasının kollegiyası 2018-ci ildə fəaliyyətlə bağlı hesabatı təsdiq edib

Hesablama Palatasının növbəti kollegiya iclasında qurumun 2018-ci ildə fəaliyyətinə dair hesabat müzakirə olunub.

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hesabatın "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən hazırlandığı, eyni zamanda, fəaliyyətlə bağlı hesabatvermənin Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı olan INTOSAI-ın qəbul etdiyi standartlar - Auditin Təməl Prinsipləri haqqında Lima Bəyannaməsi (ISSAI - 1) və Müstəqillik haqqında Mexiko Bəyannaməsi (ISSAI - 10) ilə müəyyən edildiyi diqqətə çatdırılıb.



Bildirilib ki, 2018-ci il üzrə hazırlanmış hesabatın strukturunda bir sıra təkmilləşdirmələr aparılıb, hesabatlılıq və şəffaflığın gücləndirilməsi istiqamətində həyata keçirilmiş tədbirlər, o cümlədən Hesablama Palatasının təqdim etdiyi təkliflərlə bağlı müvafiq orqanların münasibəti, korrupsiyaya qarşı mübarizə istiqamətində görülmüş işlər üzrə geniş məlumatlar əks etdirilib.

Hesabatla bağlı ayrı-ayrı fəaliyyət sahələrinə rəhbərlik edən auditorlar Cəfər Həsənov və Firsənd Qurbanov hesabat ilində həyata keçirilmiş nəzarət tədbirləri üzrə məruzə ilə çıxış edib, həmin tədbirlərlə müəyyən olunmuş nöqsanlar, görülmüş tədbirlərin nəticələri ilə bağlı məlumat veriblər.

Sonda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2018-ci ildə görülmüş işlərə yekun vuraraq bildirib ki, fəaliyyətlə bağlı hesabat il ərzində tərtib edilməli olan və palatanın fəaliyyətinin güzgüsü funksiyasını daşıyan sənəddir. Hər bir əməkdaşın hesabatda əks etdirilmiş göstəricilər arxasında əməyi olduğunu qeyd edən V.Gülməmmədov bu əməyin ümumi işin keyfiyyətli olmasına xidmət etdiyini vurğulayıb.

V.Gülməmmədov Hesablama Palatasının fəaliyyətinin gücləndirilməsinə ehtiyac olan sahələri diqqətə çatdırıb, ayrı-ayrı sahələrə nəzarət üzrə məsul şöbələrin fəaliyyətində nöqsanlarını sadalayıb. Palata sədri 2019-cu ildə qarşıda duran vəzifələr, bu vəzifələrin icrası ilə əlaqədar görülən və nəzərdə tutulan tədbirlər barədə danışaraq 2018-ci ilin sentyabr ayında qəbul edilmiş yeni qanunun yeni vəzifə və səlahiyyətlər müəyyən etdiyini, bunun isə kənar dövlət maliyyə nəzarət orqanı olaraq həm də Hesablama Palatasının funksiyalarının icrasında məsuliyyətini artırdığını qeyd edib.

Qarşıda duran vəzifələrin müvəffəqiyyətli icrasının təmin edilməsində bacarıq və səriştələrin artırılmasının vacib olduğunu vurğulayan V.Gülməmmədov bu məqsədlə Hesablama Palatasının nəzarət fəaliyyətini tənzimləyən metodiki sənədlərin hazırlanması, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi və beynəlxalq təcrübənin öyrənilməsi sahəsində davamlı tədbirlərin keçirilmə zərurətini diqqətə çatdırıb.

Daha sonra hesabat müzakirə edilib və təsdiqlənib. Hesablama Palatasının 2018-ci ildə fəaliyyətinə dair hesabatın Milli Məclisə təqdim edilməsi ilə bağlı kollegiya qərarı qəbul olunub.

# Azərbaycanın Baş naziri Macarıstanın xarici işlər və ticarət nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov martın 29-da ölkəmizdə səfərdə olan Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana səfərlərini xatırladaraq, ölkələrimiz arasındakı münasibətlərin strateji xarakter daşıdığını vurğulayıb. Azərbaycan ilə Macarıstanın tarixi köklərə əsaslanan sıx münasibətlərinin olduğunu deyən Novruz Məmmədov ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən iqtisadiyyatın müxtəlif istiqamətlərində, energetika, turizm, kənd təsərrüfatı, İKT və humanitar sahələrdə mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Baş nazir Macarıstanın Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizin ədalətli mövqeyini daim müdafiə etdiyinə görə minnətdarlığını bildirib.

Novruz Məmmədov Peter Siyartonun Azərbaycana səfəri çərçivəsində Azərbaycan Dillər Universitetində açılacaq Macar Dili və Mədəniyyəti Mərkəzinin iki ölkə arasında humanitar əməkdaşlığa töhfə verəcəyini qeyd edib.

Ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsi üçün kifayət qədər imkanların olduğunu vurğulayan Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto deyib ki, Azərbaycana hər səfərində paytaxtımızda gördüyü inkişaf onda dərin təəssürat yaradır. Avropanın, o cümlədən Macarıstanın enerji mənbələrinin şaxələndirilməsinin vacibliyindən söz açan Peter Siyarto Cənub Qaz Dəhlizinin önəminə toxunub və bu layihənin reallaşdırılmasında Azərbaycanın rolunu yüksək qiymətləndirib. Qonaq Macarıstanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında müşahidəçi statusu ilə təmsil olunduğunu xatırladaraq, tarixi köklərlə bağlı olduğu türkdilli ölkələrlə əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduqlarını deyib.

Görüşdə iqtisadi, energetika, investisiya qoyuluşu, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# Siyavuş Novruzov: Azərbaycan dövləti hər zaman xalqın yanındadır



**"Bəzi hallarda insanlar öz əmlaklarını sığorta etdirmirlər. Bir hadisə baş verəndə də dövlət bu məsələni öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikasında, demək olar ki, sığorta olunmamış ev qalmayıb. Əgər hansısa hadisə baş verərsə, sığorta şirkətləri məsuliyyəti öz üzərlərinə götürürlər".** Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov parlamentin dünən keçirilən iclasındakı çıxışı zamanı deyib.

S.Novruzov qeyd edib ki, Prezident İlham Əliyev Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar keçirilən müşavirədə sığorta məsələləri ilə bağlı fikirlərini bildirib. Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsində də sığorta məsələsi ilə bağlı layihələr hazırlanmalıdır. Onun sözlərinə görə, qanunvericilikdə insanların əmlakının sığortalanması məsələsi öz əksini tapmalıdır.

S.Novruzov təəssüflə qeyd edib ki, Azərbaycanda baş verən hər hansı belə hadisələrdən sui-istifadə edənlər var: **"Bəziləri müxtəlif çağırışlar edirlər, insanları mitinqlərə çağırırlar. Bilirsiniz ki, son prezident seçkilərindən sonra sosial-iqtisadi sahədə mühüm islahatlar həyata keçirilir. Cənab Prezident bütün məsələlərin həlli istiqamətində önəmli addımlar atır. Artıq hər kəs görür ki, mərhələli şəkildə bütün problemlər öz həllini tapır. Amma təəssüf ki, mitinq keçirmək, üç-beş adam yığıb nəsə deməklə islahatları öz adlarına çıxmaq istəyənlər var. Burada məqsəd ölkədə aparılan islahatlara kölgə salmaq, baş verənləri cəmiyyətə öz adlarından təqdim etməkdir".**

Deputat deyib ki, həmin qüvvələr hələ 1990-cı illərdə belə hadisələrdən hakimiyyətə gəlmək üçün sui-istifadə ediblər: **"Yanğında, zəlzələdə zərərçəkənlərin yanında olmaq əvəzinə, müxtəlif mitinq çağırışları edilir. Belə addımlarla insanlara yanlış informasiyalar verilir. Bu gün qibləsini tanımayan Əli Kərimli və Sevinc Osmanqızı Azərbaycandakı islahatları tamamilə fərqli şəkildə dünyaya çatdırmaq istəyirlər ".**

Dövlət başçısı tərəfindən imzalanan əfv Sərəncamının guya hər hansı təzyiqlər nəticəsində imzalanmasına dair yanlış fikirləri də pisləyən S.Novruzov deyib ki, əfv siyasəti kimlərinsə təzyiqi vasitəsilə həyata keçirilmir. Onun sözlərinə görə, bu, ölkə başçısının humanist addımı və vətəndaşların müraciəti əsasında həyata keçirilir. Sərəncamın kimlərinsə bəyanatı ilə heç bir əlaqəsi yoxdur. Azərbaycan demokratik dövlətdir, heç kimin daxili işlərinə qarışmır və kimsə də bizim işimizə qarışa bilməz. **"Azərbaycan dövləti hər zaman xalqın yanındadır. Ölkə başçısı ötən gün keçirilən müşavirədə də söylədi ki, baxmayaraq ki, yanğınla bağlı ziyanın ödənilməsi dövlətin işi deyil, amma dövlət hər zaman sahibkarların yanındadır. Zaqatalada, Şamaxıda baş verən zəlzələlər zamanı ölkə başçısı insanların yanında oldu. Hazırda həmin ərazilərdə gözəl evlər tikilir və zəlzələdən zərər çəkmiş insanlara verilir. Əvvəllər də baş verən təbii fəlakətlər zamanı da zərər çəkmiş insanlara dövlət bütün dəstəyi göstərib. Bu işlərə kölgə salmaq mümkün deyil",** - deyə S.Novruzov vurğulayıb.

# Azərbaycan Dillər Universitetində Macar Dili və Mədəniyyəti Mərkəzi açılıb

*Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto və rektor Kamal Abdulla razılaşma sənədi imzalayıblar*



Martın 29-da Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ölkəmizə səfəri çərçivəsində Azərbaycan Dillər Universitetində (ADU) olub.

AZƏRTAC xəbər verir ki, ADU-nun rektoru, akademik Kamal Abdulla nazir Peter Siyartonu universitetdə görməkdən şad olduğunu deyib. Rektor nazirin Azərbaycana səfərinin iki xalq arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafı üçün faydalı olduğunu söyləyib. Kamal Abdulla nazirin şəxsən iştirakı ilə universitetdə Macar Dili və Mədəniyyəti Mərkəzinin açılmasının əlamətdar hal olduğunu diqqətə çatdırıb. Akademik mərkəzin açılışı üçün hazırlıqların tamamlandığını qeyd edib. Mərkəzin açılışının qarşılıqlı əlaqələrin möhkəmlənməsinə xidmət göstərəcəyini bildirən rektor Azərbaycan mədəniyyətini, dilini, ədəbiyyatını, tarixini təbliğ etmək üçün Macarıstan universitetlərindən birində güzgü effekti olaraq Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi yaradılmasında nazirin dəstəyini əsirgəməyəcəyinə ümidvar olduğunu deyib. O, universitetdə Macar Dili və Mədəniyyəti Mərkəzinin açılışı ilə yanaşı, gələcək əlaqələrin inkişafı üçün macar dilinin və mədəniyyətinin tədrisi ilə bağlı əməkdaşlıq sənədinin də imzalanmasını yüksək qiymətləndirib.

Nazir Peter Siyarto ADU-da olmaqdan məmnunluğunu ifadə edib, əməkdaşlığın inkişafında yaradılan şəraitə görə universitet rəhbərinə təşəkkürünü bildirib. İki ölkə arasında inkişafda olan əlaqələrdən söz açan Peter Siyarto ADU-da Macar Dili və Mədəniyyəti Mərkəzinin yaradılmasını yüksək qiymətləndirib. O, hər il xarici tələbələr üçün Macarıstan universitetlərində geniş imkanlar yaradıldığını bildirib və tələbələrə bu imkanlardan yararlanmağı tövsiyə edib.

Tərəflər arasında macar dilinin və mədəniyyətinin tədrisini həyata keçirmək məqsədilə razılaşma sənədi imzalanıb. Əldə olunmuş razılaşmaya əsasən, təhsil, elm və mədəniyyət sahəsində 2018-ci il 29 iyun tarixli əməkdaşlıq razılaşmasının yenilənməsi, ADU-da macar dili və mədəniyyətinin tədrisinin təmin edilməsi məqsədilə əməkdaşlıq edilməsi, yaxın vaxtlarda Macarıstan universitetlərinin birində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin yaradılmasını dəstəkləmək üçün birgə səy göstərilməsi və digər məsələlər nəzərdə tutulub.

Daha sonra tədbir iştirakçıları Macar Dili və Mədəniyyəti Mərkəzi ilə tanış olublar.

# Milli Məclisin növbəti iclası keçirilib

*İclasda millət vəkilləri gündəlikdə olan 25 qanun layihəsini qəbul ediblər*




Martın 29-da Milli Məclisin növbəti iclası keçirilib. Spiker Oqtay Əsədov iclası açıq elan etdikdən sonra ilk olaraq Milli Məclisin İnsan hüquqları komitəsinin üzvünün seçilməsi haqqında qərar layihəsi təsdiq edilib və Naqif Həmzəyev komitənin üzvü seçilib.

Sonra parlamentin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli "Ümumi təhsil haqqında" qanun layihəsi barədə (üçüncü oxunuş) məlumat verib. O bildirib ki, qanun layihəsi birinci və ikinci oxunuşların müzakirəsi zamanı deputatların fikirləri və təklifləri əsasında daha da təkmilləşdirilib. Zəruri olan, təhsilin inkişafına xidmət edən təkliflər nəzərə alınıb. Sənəd üçüncü oxunuşda təsdiq olunub. Qeyd edək ki, bu qanun respublikamızda ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edəcək.

Daha sonra millət vəkilləri "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə müsbət münasibət bildiriblər.

Daha sonra İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və Mülki Prosessual Məcəllədə və "İpoteka haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri haqqında parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Dəyişikliklər "Daşınar əmlakın yüklülüyü haqqında" qanunun icrası ilə əlaqədardır.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Sığorta fəaliyyəti haqqında" qanuna dəyişiklik edilməsi (üçüncü oxunuş) layihəsi haqqında məlumat verib. Qanun layihəsinin müzakirəsi zamanı çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, millət vəkili Aydın Mirzəzadə və digərləri öz təkliflərini veriblər.

Daha sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Telekommunikasiya haqqında" qanuna dəyişiklik edilməsi barədə layihələri (üçüncü oxunuş) təqdim edib. Dəyişikliklər qanunsuz telekommunikasiya xidmətlərinin qarşısının alınması məqsədlərinə xidmət edir.

İclasda, həmçinin "Azərbaycan Respublikasının Prezidenti və Belarus Respublikasının Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında" və "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" qanun layihələri qəbul olunub.

Sonra parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini müzakirəyə təqdim edərək bildirib ki, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması, eləcə də əhalinin əsas istehlak mallarına olan tələbatının ödənilməsi məqsədilə buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı 2017-ci il yanvarın 1-dən üç il müddətinə əlavə dəyər vergisindən azad edilib. Bununla yanaşı, buğdanın emalından əldə olunan kəpəyin istehsalı və satışına müvafiq güzəşt nəzərdə tutulmamışdı. Bu isə öz növbəsində emal prosesində əldə olunmuş məhsulların maya dəyərinin, o cümlədən heyvandarlıq kompleksində yem kimi istifadə olunan kəpəyin satış qiymətinin artmasına səbəb olur. Buna görə kəpək istehsalı və satışına da güzəştlərin tətbiqi məqsədəuyğun hesab edilir. Eyni zamanda, un və çörəyin qiymətinin məqbul səviyyədə saxlanılması, yeni un istehsalçılarının buğda tələbatının ödənilməsi məqsədilə Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt müddətinin bir il uzadılması da məqsədəmüvafiq hesab olunur. Vergi Məcəlləsinə təklif olunan dəyişiklik də bununla bağlıdır.

Ziyad Səmədzadə, həmçinin "Hesablama Palatası haqqında" qanunda dəyişiklik edilməsi barədə deyib ki, qanun layihəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlarda həyata keçirilən auditə dair məlumatların təqdim edilməsi qaydasının təkmilləşdirilməsi, habelə Hesablama Palatasının üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə hazılanıb.

İclasda, eyni zamanda, "Konstitusiya Məhkəməsi haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlara da dəyişikliklər edilib.

Millət vəkilləri daha sonra "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Azərbaycan Respublikasının 1992-ci il 27 may tarixli 142 nömrəli Qanununun ləğvi barədə" və "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında" Azərbaycan Respublikasının 1993-cü il 19 yanvar tarixli 460 nömrəli Konstitusiya Qanununun ləğvi barədə" qanun layihələrinə müsbət münasibət bildiriblər. Komitə sədri Əli Hüseynli deyib ki, bu barədə yeni qanunlar qəbul edildiyi üçün əvvəlki dövrdə qəbul edilmiş qanunlar ləğv edilir.

Daha sonra "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" qanunda dəyişiklik edilməsi müzakirə edilib. Təklif edilən dəyişiklik şəxsiyyət vəsiqəsi alan vətəndaşların məcburi daktiloskopik qeydiyyatdan keçirilməsini nəzərdə tutur. Müzakirələrdən sonra qanun layihəsi qəbul olunub.

İclasda İnzibati Xətalar Məcəlləsində və "Dövlət rüsumu haqqında" qanunda da dəyişikliklər edilib.

Həmçinin "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Dövlət rüsumu haqqında", "Mühasibat uçotu haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda, "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə" və "Peşə təhsili haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihələri qəbul olunub. Qeyd edilib ki, dəyişikliklər "Peşə təhsili haqqında" qanuna, həmçinin bu qanuna edilən dəyişikliklərə uyğunlaşdırma məqsədi daşıyır.

İclasda son olaraq "Mediasiya haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb. Layihə ilə bağlı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, bu qanun qüvvəyə mindikdən sonra mülki işlər və iqtisadi mübahisələr, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr mediatorların vasitəçiliyi ilə həll olunacaq. Qanun layihəsinə əsasən, tərəflər məhkəməyə müraciət etməzdən əvvəl ilkin mediasiya sessiyasında iştirak etməlidirlər. İlkin mediasiya sessiyasını tərəflərin qarşılıqlı razılaşdırdığı mediator və ya mediator təşkilatı aparacaq.

Qanun layihəsi 5 fəsil 39 maddədən ibarətdir. Bu qanunun qüvvəyə minməsi və mediasiya institutunun yaranması ölkədə məhkəmələrin iş yükünün azalmasına xidmət edəcək və yeni fəaliyyət növü yaradacaq.

Müzakirələr zamanı deputatlardan Elmira Axundova, Qüdrət Həsənquliyev, Qənirə Paşayeva, Əflatun Amaşov, Azay Quliyev, Sahib Alıyev və komitə sədri Aqiyə Naxçıvanlı layihə ilə bağlı fikirlərini bildiriblər. Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda qəbul olunub.

**Nardar BAYRAMLI**

# Milli Məclisin mətbuata açıqlaması

Bir müddət əvvəl Milli Məclisin sədri Oqtay Əsədov Avropa Parlamentinin (AP) fransalı vitse-prezidenti Silvi Qiyomun martın 6-da özünü qondarma "Dağlıq Qarabağ respublikasının spikeri" adlandıran Aşot Qulyanla görüşməsi ilə bağlı AP-nin sədri Antonio Tayaniyə etiraz məktubu ünvanlamışdı. Avropa Parlamentinin sədri Antonio Tayani Milli Məclisin sədri Oqtay Əsədova cavab məktubu ünvanlayıb. Bu barədə AZƏRTAC-a Milli Məclisin mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilir ki, məktubda keçirilmiş görüşün xanım Qiyomun fərdi mandatı çərçivəsində baş tutduğu ifadə edilib, fransalı deputatın bu görüşü AP-nin vitse-prezidenti kimi deyil, müstəqil bir deputat olaraq, şəxsi formatda keçirdiyi və bunun AP-nin rəsmi fəaliyyətinə heç bir aidiyyətinin olmadığı vurğulanıb. Cavab məktubunda deyilir: **"... xanım Qiyom bu görüşü parlamentin sıravi bir üzvü kimi, fərdi zəmində keçirib və həmin görüşlə bağlı Avropa Parlamentinin Dağlıq Qarabağ münaqişəsi üzrə mövqeyinə zidd olan hər hansı bir açıqlama ilə çıxış etməyib".**

Avropa Parlamenti sədrinin məktubu separatçı rejim nümayəndələrinin şəxsi zəmində keçirdikləri qeyri-rəsmi görüşü az qala qondarma rejimin AP-də rəsmi səviyyələrdə qəbul olunması kimi təqdim etmək cəhdlərini bir daha ifşa edir. Beləliklə, saxta "spiker"in mətbuatda yayımladığı saxta məlumatlar Avropa Parlamentinin sədri səviyyəsində rəsmən təkzib olundu.

Avropa Parlamentinin sədri öz məktubunda, həmçinin Azərbaycan xalqına Novruz bayramı münasibətilə təbriklərini çatdırıb və Novruz bayramı ərəfəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən 400 nəfərin azadlığa çıxması haqqında əfv Sərəncamı imzalanmasını alqışladığını qeyd edib.

# MSK sədrinin başçılıq etdiyi nümayəndə heyəti Ukraynada prezident seçkilərini müşahidə edəcək



Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Ukraynada keçiriləcək prezident seçkilərini müşahidə etmək üçün martın 29-dan Kiyevdə səfərdədir. Bu barədə AZƏRTAC-ın xüsusi müxbirinə Ukrayna Mərkəzi Seçki Komissiyasından məlumat verilib.

Məlumata görə, MSK sədri M.Pənahov səfər çərçivəsində ukraynalı həmkarı ilə yanaşı, digər rəsmi şəxslərlə də bir sıra görüşlər keçirəcək və səsvermə günü Kiyev şəhərinin seçki məntəqələrini müşahidə edəcək.

Qeyd edək ki, Ukraynada prezident seçkiləri martın 31-də keçiriləcək.

# Sədaqət Vəliyeva: Prezident hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir



Prezident İlham Əliyev atdığı bütün addımlarıyla hər bir azərbaycanlının Prezidenti olduğunu isbatlayır. Bədbəxt hadisələr zamanı çətin vəziyyətə düşmüş vətəndaşların yanında olan, onlara kömək edən, problemlərini həll edən Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir. Bu fikirləri AZƏRTAC-a Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Deputat bildirib ki, ölkə başçısı daim vətəndaşlarla ünsiyyətdədir, cənubdan şimala, qərbdən şərqə bütün rayonlarımızda dəfələrlə səfərdə olur, insanların güzəranı ilə maraqlanır, problemlərinin həlli ilə bağlı yerində tapşırıqlar verir. Elə Lənkəranda bina çökəndə, Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda, Ağsuda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış gördü, əlini küreyində hiss etdi: **“Biz eyni münasibəti Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar proseslərdə də gördük. Prezident İlham Əliyev yanğın baş verən gündən məsələni nəzarətinə götürdü, müşavirə keçirdi, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin təmin edilməsi üçün müvafiq komissiya yaratdı. Bütün bunlar bir daha göstərdi ki, dövlət hər zaman vətəndaşın yanındadır. Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı və problemlərinin ağırlıqlarını öz çiyinlərinə götürdü. Əlbəttə ki, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin verilməsi, eyni zamanda, həyata keçirilən sosial siyasətin tərkib hissəsidir və dövlət zərərçəkmiş sahibkarlara sahib çıxdı”.**

**“Bütün deyilənlərlə yanaşı “Diqlas” yanğını ilə əlaqədar baş vermiş hadisələrdə xalq-Prezident birliyi bu dəfə də Azərbaycan dövlətinin və xalqının düşmənlərinin planlarını pozdu”,** - deyən Sədaqət Vəliyeva əlavə edib ki, zərər çəkmiş sahibkarların və onların ailələrinin, yaxınlarının düşdüyü çətin vəziyyətdən sui-istifadə edib mitinq keçirmək istəyən antimilli ünsürlər yenidən ifşa olundular, bir daha xalqdan ayrı olduqlarını, yalnız korporativ mənafelərini düşündüklərini və insanların taleyinin onları maraqlandırmağını ortaya qoydular.

# Cavanşir Paşazadə: Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı

Prezident İlham Əliyevin Nizami rayonundakı ticarət mərkəzində baş verən yanğın hadisəsini dərhal ciddi nəzarətə götürməsi, zərərçəkən sahibkarlara dövlət tərəfindən yardım göstərilməsi ilə bağlı tapşırıq verməsi təqdirəlayiqdir və bütövlükdə cəmiyyətimiz tərəfindən çox yüksək qiymətləndirilir. Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı.

Bunu qəzetmizə açıqlamasında Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib. Onun sözlərinə görə, dünya ölkələrində bu tipli qərarlar qəbul olunmasa da, Azərbaycan bu baxımdan tamamilə fərqlənir. Bu, bilavasitə vətəndaşların mənafeyinə xidmət edir.



**“Dövlət başçısının imzaladığı “Bakı şəhərinin Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi haqqında” Sərəncama əsasən, 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ilkin olaraq 3 milyon manat ayrılıb. Bu fakt bir daha göstərir ki, Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev hər zaman vətəndaşların yanındadır. Məlumdur ki, dövlətimiz əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı olaraq tədbirlər həyata keçirir. Bütün bunlar göstərir ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində insan amili və onun rifahı dayanır. Onu da qeyd etmək lazımdır ki, sahibkarlar da cəmiyyətimizin bir təbəqəsi olaraq dövlətin dəstəyindən bəhrələnirlər. Bu gün Azərbaycanda sahibkarlığın inkişafına güclü dövlət dəstəyi mövcuddur. Müşavirədə dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycanda sahibkarlığın inkişafı geniş vüsət alıb və ölkəmizin gələcək, uzunmüddətli, dayanıqlı inkişafı böyük dərəcədə sahibkarların fəaliyyəti ilə bağlıdır. Sahibkarlar müxtəlif sahələrdə, istehsalda, xidmət və ticarət sektorlarında çox fəal işləyirlər. Cənab Prezident dövlətin hər zaman sahibkarların yanında olacağını bəyan edib”,** - deyə millət vəkili əlavə edib.

# Hikmət Babaoğlu: Dövlətimizin başçısı İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu bir daha sübut etdi

Nizami rayonundakı ticarət mərkəzində baş verən yanğından dərhal sonra Prezident İlham Əliyev tərəfindən atılan addım bütün hallarda dövlət başçısının öz vətəndaşlarının yanında olmasının bariz göstəricisidir. Bu, bir daha sübut etdi ki, Prezident İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. O qeyd edib ki, Azərbaycanda sosial problemlərin həlli ilə bağlı çox böyük işlər həyata keçirilir. Bu işlər sistemli və ardıcıl xarakter daşıyır. Bəzən fövqəladə halların baş verməsi nəticəsində yaranan problemlərin operativ həlli də daim Prezidentin diqqət mərkəzindədir. Bir müddət əvvəl Şamaxı, İsmayıllı və Ağsuda, ondan daha əvvəl Zaqatala və Balakəndə baş verən zəlzələlər zamanı da zərərçəkənlərin yanında ilk olaraq Azərbaycan Prezidentini gördük. İndi də ticarət mərkəzində yanğın baş verib və xeyli sayda sahibkar ziyan çəkib. Yenə də Prezident öz vətəndaşının yanındadır. Bu cür humanist addım, vətəndaşa belə diqqət və qayğı dünyanın heç bir ölkəsində yoxdur. Ticarət mərkəzində sahibkara məxsus mallar yanıb. Əslində onlar öz əmlaklarını sığorta etdirməli, belə bədbəxt hadisələr zamanı da sığorta şirkətləri onların zərərini qarşılamalıdır. Ancaq Azərbaycanda vətəndaşın çətin vəziyyətində Prezidentin birbaşa bu məsələyə müdaxilə etməsi bir daha böyük humanizm nümunəsidir. Artıq vətəndaşa dəyən ziyana görə dövlət yardımının verilməsi ilə bağlı işlər həyata keçirilməyə başlanıb və müvafiq qurumlar bu işlə məşğuldurlar. Bu, xalq-iqtidar birliyinin ən gözəl, ən bariz nümunələrindən biridir.



# Aydın Hüseynov: Azərbaycan vətəndaşlarının problemlərinin həlli daim Prezidentimizin diqqət mərkəzindədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nizami rayonundakı ticarət mərkəzində baş verən yanğın hadisəsini dərhal ciddi nəzarətə götürməsi, zərərçəkən hər bir sahibkara dövlət tərəfindən yardım göstərilməsi ilə bağlı tapşırıq verməsi təkcə sahibkarlar deyil, bütün cəmiyyət tərəfindən çox müsbət qarşılandı. Dünyanın heç bir ölkəsində bu cür qərarlar qəbul edilmir. Belə işlərlə, adətən, sığorta şirkətləri məşğul olur.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov söyləyib. Deputat qeyd edib ki, Prezident İlham Əliyevin bu tapşırığı Azərbaycan vətəndaşlarının problemlərinin həllinin daim dövlət başçısının diqqət mərkəzində olduğunu bir daha göstərdi.

A.Hüseynov əlavə edib ki, Azərbaycan dövləti əhalinin rifahını yüksəltmək məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər görür. İqtisadi və institusional islahatlar həyata keçirilir, bununla da vətəndaşların yaşayış səviyyəsi yaxşılaşdırılır, yeni iş yerləri açılır. Əhalinin məşğulluğunun və gəlirlərinin artması təmin edilir, yoxsulluq səviyyəsinin daha da azalması üçün işlər görülür. Bütün bunlar göstərir ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində insan amili və onun rifahı dayanır.

Milli Məclisin deputatı vurğulayıb ki, Prezidentin ölkəmizin gələcək, uzunmüddətli, dayanıqlı inkişafının böyük dərəcədə sahibkarların fəaliyyəti ilə bağlı olduğunu vurğulaması, ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlətin hər zaman sahibkarların yanında olduğunu və bundan sonra da olacağını qeyd etməsi iş adamları üçün böyük stimul olmaqla yanaşı, həm də dövlət başçısının ölkə iqtisadiyyatının saxələndirilməsi və iqtisadi inkişafla bağlı strateji hədəflərini nümayiş etdirir. Azərbaycanda sosial problemlərin həlli ilə bağlı çox böyük işlər həyata keçirilir. Bu işlər sistemli və ardıcıl xarakter daşıyır. Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı. Prezident İlham Əliyev tez bir zamanda məsələni nəzarətə götürdü, müşavirə keçirdi, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin təmin edilməsi üçün müvafiq komissiya yaratdı. Bütün bunlar bir daha göstərdi ki, dövlət hər zaman vətəndaşının yanındadır.

# İlham Məmmədov: Sahibkarlara dəyən zərərin ödənilməsi, komissiyanın yaradılması nümunəvi sosial siyasətin bariz göstəricisidir

Dünyanın bir çox dövlətlərində fövqəladə hallar olanda dövlət ancaq təhlükəsizliyi təmin etməyə və yanğın hadisəsi zamanı onu söndürməyə məsuldur. Azərbaycanda isə bu baxımdan vəziyyət başqa cürdür. Burada dövlət vətəndaşa hər bir köməyi göstərir.

Bunu Milli Məclisin deputatı İlham Məmmədov deyib. Millət vəkili bildirib ki, Azərbaycanda aparılan sosial siyasət vətəndaşlarda məmnunluq doğurur: **“Prezident İlham Əliyev Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar öz humanistliyini göstərərək sahibkarlara dövlət yardımının ayrılması haqqında tapşırıq verdi. Sahibkarlara dəyən zərərin ödənilməsi, komissiyanın yaradılması və s. kimi hallar nümunəvi sosial siyasətin bariz göstəricisidir”.**



Millət vəkili onu da əlavə edib ki, bütövlükdə, Azərbaycanda həyata keçirilən sosial islahatlar dünyaya bir nümunə olmalıdır. Çünki Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev hər bir vətəndaşının yanında olduğunu həmişə sübut edib.

# 31 mart soyqırımı insanlığa qarşı cinayətdir



*Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Musa Qasımlı www.yap.org.az saytına müsahibə verib:*

**- Musa müəllim, 1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş soyqırımının 101 ili tamam olur. Tarix boyu dəfələrlə ermənilər azərbaycanlılara qarşı qırğınlar törədiblər. Ümumiyyətlə, xalqımıza qarşı törədilmiş soyqırımının tarixi kökləri haqqında nə deyə bilərsiniz? Bu prosesdə ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi nə dərəcədə rol oynayıb?**

- Qeyd edim ki, Birinci Dünya müharibəsinin getdiyi vaxt, Rusiyada bolşeviklər Müvəqqəti hökuməti devirib hakimiyyətə gəldikdən sonra rus Qafqaz cəbhəsinin dağılması nəticəsində Anadoluda törətdikləri soyqırımına görə cəzasız qalmayacaqlarından qorxan erməni-daşnak dəstələri geri çəkilən ordu ilə birlikdə Cənubi Qafqaza qayıtdı. Bu zaman regionda anarxiya hökm sürürdü, Müvəqqəti hökumətin orqanları, sovetlər və milli komitələr fəaliyyət göstərirdilər. Bakıdan keçib Rusiyaya getməli olan rus əsgərləri silah və sursatını ermənilərə və Bakı bolşeviklərinə vermişdi. Mülki türk, müsəlman əhaliyə qarşı Şərqi Anadoluda törətdikləri qırğınları erməni silahlı dəstələri 1917-ci ilin payızından etibarən tarixi Azərbaycan torpağı olan İrəvan quberniyası - indiki Ermənistan Respublikası, Cənubi Azərbaycan, indiki Azərbaycan Respublikası və Tiflis quberniyası ərazilərində törətdilər.

Erməni silahlı qüvvələrinin mülki azərbaycanlı əhaliyə qarşı törətdikləri kütləvi qırğınların zirvə nöqtəsi 1918-ci ilin martında oldu.

Martda törədilən soyqırımının həm tarixi kökləri, həm daxili şəraitdən, həm də böyük dövlətlərin regionda yürütdükləri siyasətdən törəyən səbəbləri var idi. Soyqırımının kökləri hər şeydən əvvəl, çar Rusiyasının isti dənizlərə yiyələnmək strategiyasını həyata keçirmək üçün özünə “etibarlı” ünsür axtarması ilə bağlı idi. İsti dənizlərə çıxmaq üçün Osmanlı dövləti və İrana qarşı mübarizədə yanında qul psixologiyasına sahib, Şərqi yaxşı bilən, şəraitə tez uyğunlaşmağı bacaran və özünə digər amillər baxımından yaxın hesab etdiyi erməniləri görməsi, onları azərbaycanlı torpaqlarına köçürüb yerləşdirməsi, əlverişli şərait yaradaraq qısa müddətdə varlandırması ilə bütün Cənubi Qafqaz regionunda milli münaqişələrin və sonralar isə baş verən qanlı hadisələrin təməli qoyuldu.

İsti dənizlərə çıxmaq üçün apardığı işğalçı müharibələr nəticəsində Azərbaycanı bölüşdürdükdən sonra Cənubi Qafqaza erməniləri yerləşdirməklə çarizm həm demoqrafik vəziyyəti dəyişdirdi, həm də onları Şərq siyasətində bir alətə çevirdi. Həmin siyasəti çarizm devrildikdən sonra qurulan Müvəqqəti hökumət, ondan sonra isə bolşevik Rusiyası da davam etdirdi. 1917-ci ilin noyabrında Bakıda S.Şaumyan başda olmaqla azərbaycanlıların əleyhinə olan sovet hakimiyyəti quruldu. V.İ.Lenin həmin ilin dekabrında S.Şaumyanı Qafqazda xüsusi səlahiyyətli komissar təyin etdi.

Soyqırımının səbəblərindən biri Azərbaycanın yerləşdiyi əlverişli coğrafi-siyasi mövqeyə yiyələnmək uğrunda dövrün böyük dövlətləri arasında gedən amansız mübarizə ilə bağlı idi. Bakıda bütün Cənubi Qafqazda hakimiyyətin hansı qüvvənin əlində olmasının taleyi həll edilirdi. Bakıya hakim olmaq bütün Cənubi Qafqaza nəzarət imkanı verər, Tiflisdə fəaliyyət göstərən Zaqafqaziya Seyminin süqutuna kömək edərdi.

Digər tərəfdən, Bakıya yiyələnmək Xəzər dənizi və “dünyanın ürəyi” olan Orta Asiyaya gedən yola nəzarət etmək imkanı verərdi. Dünyanın ürəyinə gedən yol Bakıdan, Azərbaycandan keçirdi. Azərbaycan böyük ticarət yollarının üstündə yerləşirdi.

**- 1918-1920-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilən soyqırımları ilə bağlı fikirlərinizi bilmək istərdik...**

- Qırğınların törədilməsinin digər bir səbəbi Osmanlının əhalisi əsasən türk və müsəlmanlardan ibarət olan Cənubi Qafqaza, xüsusən Bakıya buraxılmaması üçün Bakı və Bakı quberniyasını yerli, aborigen əhalidən təmizləmək və Azərbaycanın müstəqilliyinin qarşısının alınması idi. Bakı Sovetinin istifadə etdiyi erməni-daşnak qüvvələri isə tarixdə olmayan “Böyük Ermənistan” qurmaq yolunda onlara mane ola biləcək azərbaycanlıları məhv etməyə çalışırdılar. Bu şəraitdə qırğınlar üçün kiçik bir bəhanə lazım idi. O da tapıldı.

Belə bir bəhanə general M.Talışinski başda olmaqla müsəlman (Azərbaycan) diviziyasının “Evelina” gəmisi ilə Lənkəranda həlak olan silah yoldaşları, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədi Bakıya gətirən bir qrup zabit və əsgərin Bakı Soveti tərəfindən tərksilah edilməsi oldu. Diviziyanın əsgər və zabitləri silahların geri qaytarılmasını tələb etsələr də, nəticəsi olmadı. S.Şaumyanla aparılan danışıqlar da uğursuz oldu. Xalq küçələrə çıxıb silahların qaytarılmasını tələb etdi. Sosial dayağı olmayan bolşevik hökumətinin rəhbəri S.Şaumyan erməniləri və bolşevikləri, xüsusən Xəzər hərbi dəniz donanmasının matroslarını azərbaycanlılara qarşı soyqırımına təhrik etdi.

Martın 30-da axşam saat 5-də Bakıda ilk atəş açıldı. Bakı Sovetinin qüvvələri ilə yanaşı, mart qırğını başlananadək özlərinin bitərəfliyini elan etmiş Daşnaksutyun və Erməni Milli Şurası, ziyalıları, o cümlədən erməni kilsəsi bir neçə saatdan sonra Bakı Soveti tərəfindən döyüşə qatıldılar. S.Şaumyan bu hadisə ilə bağlı yazırdı ki, **“bizim süvari dəstəyə ilk silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Bizim artıq 6 min nəfərə qədər silahlı qüvvəmiz var idi. Həmçinin Daşnaksutyunun 3-4 minə qədər milli hissələri var idi. Onlar da bizim sərəncamımızda idilər. Daşnaksutyunun iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi və bundan qaçmaq mümkün deyildi. Biz buna şüurlu olaraq getdik”.**

Qırğın qəddarlıqla həyata keçirildi. Şəhər yerdən və havadan bombardman edildi. Mülki azərbaycanlı əhali diri-diri su quyularına, yanan təndirlərə, neft quyularına atılır, hamilə qadınların qarınları süngü ilə deşilir, körpə uşaqlar divarlara mıxlanır, qadınlar hörüklərlə bir-birinə bağlanaraq küçələrdə çılpaq gəzdirilirdi. Silahlı dəstələr uşaqlara, qocalara və qadınlara rəhm etmirdilər. Adamlardan siyasi mənsubiyyət soruşulmurdu. Öldürmək üçün “türk, müsəlman” olmaq kifayət edirdi.

Soyqırımının gedişində azərbaycanlılara məxsus ictimai binalar, milli rəmzlər və mədəniyyət ocaqları dağıdıldı. “Açıq söz”, “Kaspi” qəzetlərinin redaksiyaları, fəaliyyətini bütün Cənubi Qafqaza yayan və müharibə zamanı Qafqaz cəbhəsində hərbi əməliyyatlar meydanında böyük iş aparan, azərbaycanlıların ictimai hərəkatında mühüm rol oynayan Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi “İsmailiyyə” binası yandırıldı. Təzəpir məscidinin minarələri zədə aldı.

Qüvvələr bərabər deyildi. Buna görə də martın 31-də azərbaycanlılar döyüşü dayandırdılar. Buna baxmayaraq, azərbaycanlıların öldürülməsi davam edirdi. Döyüş yalnız aprelin 2-də dayandırıldı. Bakıda törədilən soyqırımının ağır nəticələri oldu.

Bakıda baş verən hadisələrlə bağlı olaraq ingilis arxiv sənədində yazılır: **“Ermənilərin qoşun qüvvələri bolşeviklərə ümid edirdilər. Belə hesab edirdilər ki, onların yaxşı silahlanmış dəstələri müsəlmanlara qarşı çıxıb onları məhv edə biləcəklər. Ağır döyüşlər oldu. Müsəlmanların dörddə bir hissəsi öldürüldü...”.** Qeyd etmək lazımdır ki, o zaman Bakı şəhərində təqribən 280-300 min nəfər əhali yaşayırdı ki, onun da 80-100 min nəfəri azərbaycanlı idi. Bu qədər əhalinin dörddə biri 20-25 min nəfər edir.

**- 31 mart soyqırımının araşdırılması işləri hansı səviyyədə idi? Bu istiqamətdə nə kimi nəticələr əldə olundu?**

- Martda Bakıda törədilən soyqırımında çoxlu itkilər versə də, Azərbaycan xalqının iradəsini qırmaq mümkün olmadı, dövlət müstəqilliyinin elanı yubadılsa da, dayandırıla bilmədi. Mayın 28-də Azərbaycan xalqı bütün müsəlman Şərqində ilk dəfə olaraq respublika üsul-idarəsini qurdu. Respublika məfkurəsini müsəlman Şərqinə məhz Azərbaycan xalqı gətirdi, müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmaq yolunu və nümunəsini göstərdi. Bakı şəhəri sentyabrın 15-də azad edildi. Azərbaycan hökuməti tarixi şəhərimiz olan Bakıya köçdü. Azərbaycan nefti yadelli qüvvələrin əlindən alındı. Azərbaycan xalqı taleyinin sahibi oldu.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinin təhqiqinə xüsusi diqqət yetirildi. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiyada çalışanlar əsasən ruslar, yəhudilər və digər millətlərin nümayəndələri idilər.

Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı.

31 mart tarixi iki dəfə - 1919 və 1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edildi. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Bundan sonra həmin tarixin daha dərindən araşdırılması istiqamətində geniş işlər görüldü.

Eyni zamanda, bu hadisənin ötən il 100-cü ildönümü ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncam bu istiqamətdə həm tarix tədqiqatlarında yeni səhifə açdığından, həm də milli tarixə marağı artırdığından və həm də vətənpərvərlik hisslərini gücləndirdiyindən böyük tarixi əhəmiyyət daşıyır.

**- Musa müəllim, bu hadisələrdən hansı nəticələr çıxarmaq mümkündür? Faciənin ibrət dərsləri nədən ibarətdir?**

- 1918-ci ilin mart ayında törədilən soyqırımından alınacaq bir sıra ibarət dərsləri vardır. Hər şeydən əvvəl, bu hadisə insanlığa qarşı cinayətdir və bir daha təkrarlanmamalıdır. İkincisi, Azərbaycan xalqı yaxşı təşkil olunmadığı və ordusu olmadığı üçün soyqırımının qarşısını ala bilmədi. Deməli, Azərbaycan xalqı daim mütəşəkkil olmalı, ordusunun və dövlətinin yanında olmalıdır. Üçüncüsü, Azərbaycan xalqı anarxiya, xaos və qarışıqlıq istəmədiyi üçün belə şəraitlərdən tez baş aça bilmir və həm insan, həm də ərazi itkilərinə məruz qalır. Deməli, həm indi, həm də gələcəkdə ölkədə xaos, anarxiya və qarışıqlığa yol vermək olmaz. Dördüncüsü, o zaman Azərbaycan dövləti olsaydı və güclü olsaydı, bu soyqırımının qarşısını almaq mümkün olardı. Deməli, Azərbaycan xalqı daim güclü Azərbaycan dövlətinin mövcudiyyətinə maraqlı olmalıdır. Çünki yalnız güclü dövlət milləti fiziki baxımdan qoruyur və bütün sahələrdə inkişaf etdirir, əks halda millət daim geriyə gedir.

# Ömrünü elm və təhsilə həsr edən insan

*Pedaqoji elmlər doktoru İranə Əliyeva elmi-pedaqoji fəaliyyəti ilə ali məktəblərdə tədris prosesinin təkmilləşdirilməsinə özünün töhfələrini verib*



Bütün ömrünü elm və təhsilə həsr edən pedaqoji elmlər doktoru İranə Əliyeva, sözün əsl mənasında, əsl vətəndaş, ziyalıdır. Alimin gənc nəslə bəxş etdiyi biliklər onun mənəvi paklığından, intellektinin yüksəkliyindən, şəxsiyyətinin ucalığından qidalanır. Məhz bu keyfiyyətlərə sahib olan alim elmi-pedaqoji sahədə böyük uğurlara imza atıb. O, bunu çoxillik gərgin və halal zəhməti, istedadı və yüksək insani keyfiyyətləri ilə qazanıb. Bir alim kimi İranə Əliyevanı fərqləndirən cəhət əsərlərinin elmi dəyəri ilə, irəli sürdüyü fikir və mülahizələrdəki novatorluq ilə bağlıdır. O, elmi, pedaqoji yeniliyi görən, ona xüsusi dəyər verən bir alimdir.

Qeyd edək ki, İranə Məmməd qızı Əliyeva Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsini bitirib. Ali təhsili başa vurduqdan sonra 3 saylı Texniki Peşə Məktəbində rus dili müəllimi vəzifəsində işləyib. 1986-cı ildən o, M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda (indiki Bakı Slavyan Universiteti) əvvəlcə saathesabı müəllim, sonra isə “Rus dili və onun tədrisi” kafedrasında müəllim, baş müəllim vəzifələrində çalışıb. Müəllim kimi fəaliyyəti ilə yanaşı olaraq, İranə xanım elmi fəaliyyətlə də dərindən məşğul olub. 1997-ci ildə isə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda “Rus dili təlimində oyun tapşırıqlarında istifadə prosesində tələbələrin peşə-nitq vərdişlərinin formalaşdırılması” mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsini alıb. Eyni zamanda, 2000-ci ildən Bakı Slavyan Universitetinin tərcümə fakültəsinin “Rus dili” kafedrasının müdiri vəzifəsində çalışıb. 2005-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ona dosent elmi vəzifəsi verilib.

Elmi fəaliyyətini uğurla davam etdirən alim 2012-ci ildə isə “Dil mühitindən kənar rus dilinin konfiqurativ metodikası vasitəsilə tədrisin əsasları” mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək pedaqoji elmlər doktoru elmi dərəcəsinə layiq görülüb. 2016-cı ildə Bakı Slavyan Universitetində Rus dili və onun tədrisi metodikası kafedralarının birləşdirilməsindən sonra yaranan “Rus dili və mədəniyyətlərarası kommunikasiya” kafedrasının müdiri vəzifəsinə seçilib.

2016-cı ilin dekabr ayından isə İranə Əliyeva Azərbaycan Turizm və Menecment Universitetində çalışır. Belə ki, o, ilk olaraq universitetin İnkişaf məsələləri üzrə prorektoru olub, 2018-ci ildə isə Tədris işləri üzrə prorektor vəzifələrində işləyib. Hal-hazırda isə həmin universitetdə Elm və inkişaf məsələləri üzrə prorektor vəzifəsində çalışır.

Məlumat üçün onu da bildirək ki, professor İranə Əliyeva ali məktəblərdə tədris prosesinin təkmilləşdirilməsinə dair bir sıra təklif, fikir və mülahizələrlə çıxış edib. **“Azərbaycanda dərin savada, biliyə, ixtisasa malik olan müəllimlər var və onlar cəmiyyətin çox hissəsini təşkil edirlər. Müəllimin gənc nəslə bəxş etdiyi biliklər onun mənəvi paklığından, intellektinin yüksəkliyindən, şəxsiyyətinin ucalığından qidalanmalıdır. Məhz bu keyfiyyətlərə sahib olan alim elmi-pedaqoji sahədə böyük uğurlara imza ata bilər”,** - deyən müsahibimiz, pedaqoji elmlər doktoru İranə Əliyevanın fikrincə, ali təhsil ocağında tədris prosesinin keyfiyyətini yüksəltmək üçün müəllimlər tələbələri lazımi ədəbiyyata yönəltməli, dərslərdə və daha sonra seminarlarda mövzuları araşdırmalı, imtahana hazırlıq dövründə imtahan suallarını tələbələrlə birlikdə araşdırıb işləməlidirlər. Çünki tədris elə prosesdir ki, onu təkmilləşdirmək üçün üzərində daim işləmək lazımdır.

1980-ci ildən tədris prosesinə dair innovativ təkliflərlə çıxış edən, bu istiqamətdə araşdırmalar aparan İranə Əliyeva, eyni zamanda, həmin illərdə 3 nömrəli peşə məktəbində yeni metodika ilə rus dilinin xarici dil kimi tədrisi üçün yeni proqramlar, dərsliklər hazırlayıb. Onun tərəfindən hazırlanmış sistem Azərbaycanın bir neçə peşə məktəbində tətbiq olunub və müsbət qiymətləndirilib. Müsahibimiz deyir ki, bəhs edilən illərdə hərbi çağırışçılar üçün də rus dilini bilmək çox vacib idi. Çünki azərbaycanlı gənclər rus dilini bilmədikləri üçün ancaq tikinti batalyonunda hərbi xidmət etməli olurdular. Ona görə həmin vaxt İranə xanımın qarşısına vacib bir məsələ qoyuldu. Qısa bir zamanda (1 ay müddətində) rayonlardan çağırış vərəqələrini alan gənclərə rus dili öyrədilməli idi ki, onlar mühəndis qoşunlarında xidmət edə bilsinlər. **“Bu, çox məsuliyyətli iş idi, amma indi də hesab edirəm ki, bu, mənim üçün böyük bir təcrübə, araşdırmalarım üçün isə təkan oldu”,** - deyən İ.Əliyeva həmin vaxt bu tapşırığın öhdəsindən yüksək səviyyədə gəldiyinə görə təşəkkür sertifikatı ilə təltif olunub.

Professor İ.Əliyeva qeyd edir ki, bu eksperimentin nəticəsi M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki BSU) rəhbərliyini də maraqlandırıb. Orada tələbələr rus dili müəllimi ixtisası üzrə təhsil alırdılar. Rus dilini sərbəst bilmək əsas məqsəd idi və bu innovativ metodikanı tədrisdə tətbiq etmək İranə xanıma təklif olunur. **“Bu təklif çox maraqlı, həm də məsuliyyətli idi. Mənim dərs dediyim tələbələr gələcəyin rus dili müəllimləri idilər. Yeni metodika ilə dili öyrənənlər düşüncələrini yaza, sərbəst danışa bilirdilər və imtahanda yüksək səviyyədə biliklərini nümayiş etdirdilər”,** - deyə o bildirib. Bu təcrübə, həmçinin İranə xanımın öz araşdırmalarını tədrisin formalaşdırılmasına, təşkilinə, tədrisin məzmununa və metodikasına yönəltməsinə səbəb oldu.

1990-cı illərdə isə universitetə qəbul olunan ingilisdilli əcnəbi tələbələrin dərslikləri, işçi proqramları, dərs vəsaitləri də İranə xanım tərəfindən hazırlanıb. Eyni zamanda, respublikada dil mühitində baş verənlərin fonunda İranə xanım qurduğu sistemi yenidən təkmilləşdirməyə ehtiyac duyub. Və yenidən eksperimentlər, yoxlamalar, testlər və s. ... 1980-ci ildən qazandığı təcrübə gələcək alimə dayaq olub. O, yeni “Konfiqurativ metodika”nı dərc edib və müəlliflik sertifikatını qazanıb.

2000-ci ildə indiki BSU-da kafedra müdiri vəzifəsində işləyərkən İranə Əliyeva həm kafedrada çalışan təcrübəli müəllimləri, həm də yeni gələn müəllimləri bu yeni kofiqurativ metodikanın sistemi ilə tanış edib və onların da bu istiqamətdə tədrisə yaradıcı yanaşmalarına kömək göstərib. O, bu istiqamətdə təcrübəsini prorektor kimi çalışdığı Azərbaycan Turizm və Menecment Universitetində də uğurla tətbiq edib. **“Azərbaycan Turizm və Menecment Universitetində tədrisi konfiqurativ metodika əsasında qurdum və yenə də müsbət nəticələr əldə etdim. Bu sistemdə tətbiqi qiymətləndirmə prosesi də nəzərə alınır”,** - deyə İranə Əliyeva bildirib. Onun təbliğ etdiyi yeniliyin nəticəsində tələbələrin bilik səviyyəsi artıb və imtahanlardan kəsilmə halları minimuma enib. Professor hesab edir ki, elm və bilik tərəqqinin əsasıdır və bir-birindən asılıdır: **“Elmsiz və təhsilsiz cəmiyyət nə inkişaf edə, nə də irəliyə gedə bilər. Tədris prosesində əldə edilən biliklərin təcrübədə tətbiqi də əsas məsələlərdən biridir. Tələbələr üçün istehsalat təcrübəsinin təşkili, onların bacarıqlarının üzə çıxarılması, yeni nəsil peşəkarların yetişdirilməsi hər bir müəllim üçün unikal bir stimuldur”.**

**“Dərsi maraqlı edən təkcə mövzunun bütün təfsilatı ilə çatdırılması deyil. Onun hansı üsul və metodologiya ilə ötürülmə keyfiyyəti mühüm rol oynayır”**, - deyən İranə Əliyevanın fikrincə, tələbələr müəllimlərdən dərsin gedişində kreativlik və maraq tələb edirlər.

Qeyd edək ki, İranə Əliyevanın məhsuldar pedaqoji fəaliyyəti dövlət rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilib. O, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 dekabr tarixli Sərəncamı ilə “Əməkdar müəllim” fəxri adı ilə təltif olunub.

İranə Əliyeva fəaliyyət göstərdiyi illər ərzində elmi məqalələrin, proqramların, tezislərin, dərsliklərin, didaktik və metodik vəsaitlərin, metodik tövsiyələrin, testlərin, lüğətin, monoqrafiyanın müəllifidir. 2014-cü ildən Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olan alim, həmçinin elmi-tədqiqat işlərinə rəhbərlik edir, elmi işlərdə opponent kimi çıxış edir, doktorluq dissertasiyalarına məsləhətçi kimi təyin olunur.

Bu uğurların arxasında böyük zəhmət, əziyyətlə yanaşı, təcrübə dayanır. İranə xanım bütün bunlarla kifayətlənmir, tədrisi daha maraqlı etmək üçün daim yeni metodikalar axtarışındadır. O, dərslərini interaktiv şəkildə keçməyi üstün tutur və bu, tələbələr tərəfindən çox bəyənilir. Gördüyü işi sevən, ona hər zaman məsuliyyət hissi ilə yanaşan professor İranə Əliyeva deyir: **“Ən böyük məqsədim cəmiyyətimiz üçün savadlı və peşəkar kadrlar yetişdirməkdir. Ən böyük arzum isə Ulu Öndər Heydər Əliyevin “Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir” sözlərinə layiq olmaqdır”.**

**Nardar BAYRAMLI**

# Sahibkarlar bir daha gördülər ki, dövlət onların yanındadır

Bu gün cəmiyyətdə statusundan asılı olmayaraq hər bir vətəndaşımız dövlətin diqqət və qayğısını öz həyatında hiss edir. Təbii ki, bu qayğı günbəgün artır, dövlət hər bir vətəndaşının probleminə daha həssas şəkildə yanaşır və onu həll edir. Xüsusilə bu ilin əvvəlindən başlayaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə sosial sferada həyata keçirilən islahatlar, imzalanan fərman və sərəncamlar bunu bir daha təsdiq edir. Ölkəmizin başçısı bölgələrə səfərləri zamanı sakinlərlə görüşür, onların problem və qayğılarını öz dillərindən eşidir və ən yüksək səviyyədə həllinə çalışır. Bu və digər mühüm məqamlar həyata keçirilən uğurlu sosial siyasətin nəticəsidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Baş redaktor qeyd edib ki, bu günlərdə Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğın hadisəsi ilə bağlı Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən müşavirədə ölkə başçısının çıxışı bir daha onu sübut edir ki, dövlət hər zaman öz vətəndaşının yanındadır. Prezident əsl liderlik nümunəsi göstə-



rərək yanğın zamanı ziyan çəkmiş sahibkarlara dövlətin dəstək olacağını vurğuladı. **“Onlar öz iş yerlərini, öz əmlakını itiriblər. Onlara maddi ziyan dəyib. Bəziləri borc alıb və orada malları satışa çıxarıblar. Ona görə, əlbəttə ki, biz bu insanlara dövlət olaraq öz dəstəyimizi göstərəcəyik”.** Prezidentin bu sözləri yanğın zamanı böyük ziyan görmüş sahibkarların narahatlıqlarına son qoydu.

“İki sahil” qəzetinin baş redaktoru vurğulayıb ki, baş vermiş hadisədən nəticə çıxarmaq, təhlükəsizlik və sığorta sahəsindəki boşluqları aradan qaldırmaq lazımdır. Bu gün müxtəlif sahələrdə, xüsusilə biznes sektorunda sığorta maarifləndirilməsinə ciddi ehtiyac var. Bəzi hallarda bu, hətta məcburi xarakter daşımalıdır. Bu mənada hər bir sahibkar öz biznesini, malını, mülkünü sığortalamalıdır. Bununla da o, baş verə biləcək bu kimi bədbəxt hadisələrdən daha az zərərlə çıxa bilər. Digər tərəfdən, təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə görülməlidir. Sahibkarlar, obyekt sahibləri pul qazanmaqla yanaşı, öz sosial məsuliyyətlərini də dərk etməli, təhlükəsizlik tədbirlərinə xüsusi diqqət yetirməlidirlər. Dövlət başçısı müşavirədə çıxışı zamanı bu məsələlərə toxunub, ölkəmizdə sığorta sahəsində boşluqların olduğunu bildirib, sahibkarlara məsləhət görüb ki, öz əmlaklarını sığortalasınlar. Belə olan halda onlar tam əmin ola bilərlər ki, bədbəxt hadisə baş verdikdə əmlakları batmayacaq.

V.Rəhimzadə əlavə edib ki, sahibkarlar bir daha gördülər ki, dövlət onların yanındadır, onların sərbəst, rahat, şəffaf və qanunun tələblərinə uyğun şəkildə fəaliyyətlərinə dəstəkdir. Ölkə rəhbərliyinin bu yanaşması isə vətəndaşın dövlətə inamını artırır, xalq-iqtidar birliyini daha da möhkəmləndirir.

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Regionlarda tikinti-quruculuq işləri davamlı xarakter daşıyır

*Bu ilin üç ayı ərzində də bölgələrdə infrastruktur layihələri uğurla reallaşdırılıb*




Məlum olduğu kimi, ölkəmizdə uğurla reallaşdırılan sosial-iqtisadi siyasət respublikamızın hərtərəfli inkişafını təmin edib. Heç şübhəsiz ki, bu inkişafda ölkəmizdə 2004-cü ildən etibarən reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının xüsusi payı var. Çünki məhz bu proqramlar çərçivəsində atılan addımlar, həyata keçirilən genişmiqyaslı layihələr Azərbaycanın regionlarının ümumi inkişaf dinamikasını təmin edib. Eyni zamanda, onu da xüsusi olaraq vurğulamaq yerinə düşər ki, respublikamızda regionların sosial-iqtisadi inkişafına dair əvvəlki iki Dövlət Proqramı kimi, 2014-2018-ci illəri əhatə edən sayca üçüncü proqramın icrası da yüksək səviyyədə təmin olunub. Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixində imzaladığı növbəti Fərmanla isə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiqlənib. Yeri gəlmişkən, dövlət başçısı cari il yanvarın 29-da keçirilən “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində ölkəmizin inkişafı baxımından üçüncü Dövlət Proqramını yüksək qiymətləndirib: **“Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası təmin edildi. Beş il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirildi. Son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü proqramın çox böyük əhəmiyyəti var. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verək”.**

Beləliklə, görünən odur ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının reallaşdırılması respublikanın bölgələrinin hərtərəfli inkişafını təmin edib və hər bir rayonda əldə edilən uğurlarla müşayiət olunub. Təsadüfi deyil ki, məhz bu proqramlar çərçivəsində regionlarda genişmiqyaslı tikinti-quruculuq işləri görülüb. Hazırda da bu istiqamətdə işlər davam etdirilir.

Məsələn, respublikamızın ayrı-ayrı bölgələrində olduğu kimi, Gəncə şəhərində də qeyri-neft sektorunun vacib sahələrindən olan turizmin inkişafı məqsədilə müasir infrastrukturun, hotellərin və istirahət-əyləncə mərkəzlərinin yaradılması işləri həyata keçirilir. Belə ki, hazırda Gəncə şəhərində 5, onun inzibati ərazisinə daxil olan Hacıkənd qəsəbəsində isə 1 yeni hotel tikilir. Şəhərin mərkəzində Heydər Əliyev prospekti ilə Cavad xan küçəsinin kəsişməsində inşa edilən və ümumi sahəsi 5 min 586 kvadratmetr olan “Majestic Palace” mehmanxanasının daxilində hazırda son tamamlama işləri görülür.

Şəhərin mərkəzində, Nağı bəy Şeyxzamanlı küçəsində inşa edilən və ümumi sahəsi 2 min 500 kvadratmetr olan 8 mərtəbəli “Otel Univermaq”da, həmçinin Nizami Gəncəvi prospektindəki 8 mərtəbəli və 4 mərtəbəli hotellərin də binasında tikinti işləri yekunlaşıb.

Eyni zamanda, şəhərin Şah İsmayıl Xətai prospektində 4 mərtəbəli, Zərifə Əliyeva prospektində isə 2 mərtəbəli mehmanxanalar da inşa edilir.

Hacıkənd qəsəbəsində tikilən 7 mərtəbəli ARFA mehmanxanasının daxilində son tamamlama işləri görülür. ARFA mehmanxanasının istifadəyə verilməsi Hacıkənd və Göygöldə qış turizminin inkişafına töhfə olacaq.

Son illərdə respublikamızın bütün bölgələrində ümumtəhsil məktəblərinin infrastrukturunun müasirləşdirilməsi və maddi-texniki bazasının zənginləşdirilməsi üçün həyata keçirilən tədbirlərə uyğun olaraq Goranboy rayonunda da 24 məktəb binası və 3 əlavə tədris korpusu tikilib. Həmçinin 11 məktəb əsaslı təmir edilib. Vurğulanmalıdır ki, ötən il Xoylu kənd tam orta məktəbin əlavə korpusu əsaslı təmir edilib, Səfikürd və Balakürd kəndlərində mini-stadionlar quraşdırılıb. Bununla belə, hazırda 15 məktəbin tikintisinə, 4 məktəbin isə əsaslı təmirinə ehtiyac var.

Goranboyda tikilən Ailə və Uşaqlara Dəstək Mərkəzi isə bu il istifadəyə veriləcək. Artıq Mərkəz üçün binanın tikintisi başa çatıb. Hazırda binanın daxilində təmir işləri davam etdirilir. Mərkəzin əsas məqsədi rayonda sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına, onlarda müstəqil həyat bacarıqlarını inkişaf etdirməyə kömək etməkdir. Bu məqsədlə Mərkəzdə anaların və uşaqların iştirakını nəzərdə tutan məktəbəqədər məşğələlər təşkil ediləcək, xidmətlər göstəriləcək.

Onu da vurğulamaq yerinə düşər ki, son illərdə respublikamızda ənənəvi məktəb binalarının inşası ilə yanaşı, modul tipli məktəblərin quraşdırılması da həyata keçirilir. Xatırladaq ki, modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır. Modul tipli məktəblərin tikintisində əsasən yerli istehsal məhsullarından istifadə edilir.

Yeri gəlmişkən, tezliklə Tərtər rayonunun Kovdadıq və Zolgəran kəndlərində quraşdırılan modul tipli məktəb binaları müəllim və şagirdlərin istifadəsinə veriləcək. Məktəb binalarının tikinti-quraşdırma işləri Prezident İlham Əliyevin “Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında” 2018-ci il 16 fevral tarixli Sərəncamı ilə ayrılan vəsait hesabına həyata keçirilib.

Kovdadıq kənd ibtidai məktəbi üçün quraşdırılan bina 20, Zolgəran kənd ümumi orta məktəbi üçün qurulan bina isə 56 şagird yerlikdir. Artıq tikinti-quraşdırma işləri başa çatıb. Məktəb binaları müasir avadanlıqlar və mərkəzləşdirilmiş istilik sistemi ilə təmin edilib. Hazırda binaların su təminatı üçün işlər davam etdirilir, həyətlərində abadlıq işləri aparılır, yaşıllıqlar salınır. Qeyd edək ki, ötən il Tərtər rayonunun Bayandur və Poladlı kəndlərində də modul tipli məktəb binaları quraşdırılıb.

Xaçmaz şəhərində isə 432 şagird yerlik ikimərtəbəli məktəb binası inşa olunur. Hazırda binanın birinci mərtəbəsinin tikintisi həyata keçirilir. Bəybala Rəsulov adına Xaçmaz şəhər 5 nömrəli tam orta məktəbi üçün inşa olunan yeni bina növbəti tədris ilindən istifadəyə veriləcək. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri də inşa olunacaq. Otuz sinif otağından ibarət olacaq tədris ocağında fənn kabinetləri, kitabxana, kompüter otağı, akt və idman zalları fəaliyyət göstərəcək. Təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz ediləcək.

Ümumiyyətlə, 2018-ci ildən şimal bölgəsinin altı rayonunda 20 yeni modul tipli məktəb binasının tikintisinə başlanılıb. Bu məktəblərdən 18-i artıq istifadəyə verilib. Xaçmaz rayonunun Cığatay, Siyəzənin Qalaaltı kəndlərində quraşdırılan modul tipli məktəblər isə yaxın günlərdə şagirdlərin ixtiyarına veriləcək.

Məktəbəqədər tərbiyə müəssisələrinin müasirləşdirilməsi, maddi-texniki bazasının zənginləşdirilməsi, eləcə də gələcək nəslin təlim və tərbiyəsinin hərtərəfli inkişaf etdirilməsi məqsədilə respublikamızın ayrı-ayrı bölgələrində görülən işlərə uyğun olaraq Şəmkir rayonunda ötən il 755 yerlik 7 körpələr evi-uşaq bağçasında əsaslı təmir işləri aparılıb.

Belə ki, Şəmkir şəhərində 3, 4 və 5 saylı körpələr evi-uşaq bağçalarının, Kür qəsəbə, Keçili, Qaracəmirli və Dəllər Cırdaxan kənd körpələr evi-uşaq bağçalarının binaları əsaslı təmir olunub. Şəmkirin Hərbi şəhərcik ərazisində 8 saylı körpələr evi-uşaq bağçası üçün 100 yerlik binanın tikintisi başa çatdırılıb.

O cümlədən kənd təsərrüfatının inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında baytarlıq sahəsinin oynadığı mühüm rol nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti və tabeliyindəki qurumların iş şəraiti də yaxşılaşdırılır. Babək rayon Baytarlıq İdarəsi üçün yeni inzibati binanın inşa olunması da həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

Yeni inzibati bina 3 mərtəbədən ibarət olacaq. Hazırda binanın dam örtüyü vurulur, rabitə və elektrik xətləri çəkilir. Qeyd edək ki, müasir layihə əsasında inşa olunan binanın birinci mərtəbəsində dərman və boya maddələrinin saxlanılması üçün otaqlar və qəbul otaqları, eləcə də arxiv yerləşəcək. İkinci mərtəbədə isə virusoloq-həkim, terapevt-həkim, epizootik-həkim, süni mayalanma və laborant-sanitar otaqları, laboratoriyalar fəaliyyət göstərəcək.

Naxçıvan Muxtar Respublikasının Şahbuz şəhərində isə 40 mənzilli altımərtəbəli yaşayış binası inşa olunur. Mənzillərdən 20-si üçotaqlı, 20-si isə ikiotaqlıdır. Üçotaqlı mənzillərin ümumi sahəsi 83 və 90, ikiotaqlı mənzillərinki isə 63 və 70 kvadratmetr olacaq. Binanın zirzəmisində mülki müdafiə və səfərbərlik ehtiyatı anbarı, xidmət mərkəzi yerləşəcək. Hazırda binanın dördüncü mərtəbəsində beton-qəlib, digər mərtəbələrdə isə hörgü işləri görülür.

Yardımlı rayonunda isə Prezident İlham Əliyevin Sərəncamına əsasən Olimpiya İdman Kompleksinin tikintisi uğurla davam etdirilir. Gənclər və İdman Nazirliyinin sifarişi ilə Yardımlı şəhərindəki Heydər Əliyev prospektində inşa edilən yeni idman obyektinin tikintisinə ötən ilin oktyabrında başlanılıb. Bu, ölkəmizdə inşa edilən sayca 47-ci Olimpiya İdman Kompleksidir.

Üçmərtəbəli əsas korpusda 700 yerlik böyük idman, 160 yerlik güləş zalları, eləcə də boks zalı, voleybol və futbol meydançaları yaradılacaq. Burada həmçinin mehmanxana binası, 150 kubmetrlik su anbarı, qazanxana, elektrik yarımstansiyası və digər yardımçı tikililər də inşa ediləcək. Yardımlı Olimpiya İdman Kompleksinin bu ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulub.

Qax rayonunda da tikinti-quruculuq işləri uğurla davam etdirilir. Belə ki, Qax şəhərində istismar müddəti başa çatmış 3 ədəd ikimərtəbəli binanın sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yeni yaşayış binasının tikintisinə başlanılıb. Bina Prezident İlham Əliyevin ötən il oktyabrın 29-da imzaladığı Sərəncama əsasən inşa edilir.

Şəhərin Hürü Tağıyeva küçəsində inşa edilən 4 blokdan ibarət dördmərtəbəli binanın tikintisində hazırda zirzəmi hissəsinin betonlanması işləri görülür. Yaşayış binasının bu ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur.

**Nurlan QƏLƏNDƏRLİ**

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

MİDA

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 6-7 saylı binaları üzrə 22 mənzil, həmçinin 8 və 9 saylı binalarında yerləşən 132 mənzilin, ümumilikdə 154 mənzilin satışı 29 aprel 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 aprel 2019-cu il tarixi saat 23:59-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərindən (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir. Həmin şəxslər elektron kabinetlərində "Satış/Mənzillər" bölməsinə daxil olaraq "erkən gələnə erkən xidmət" prinsipi (satış başladığı anda sistemə daxil olaraq mənzili ilk seçən şəxslər onu almaq imkanı əldə edir) əsasında mənzilləri seçə biləcəklər. "Güzəştli Mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 154 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 15.11.2016-cı il tarixli 22880 nömrəli və 27.12.2016-cı il tarixli 23089 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 6 | 687.45 | 9 | 2 | 1 | 5 | 33,10 - 33,37 | 40,52 | "Hünər-İnşaat" / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 1 sentyabr 2018-ci il |
| | | | | 2 | 3 | 55,03 | 66,92 | | |
| | | | | 3 | 1 | 69,56 | 81,64 | | |
| 7 | 665.36 | 9 | 2 | 1 | 2 | 33,37 | 40,52 | | |
| | | | | 2 | 6 | 54,65 - 55,03 | 66,92 | | |
| | | | | 3 | 5 | 69,56 - 69,93 | 81,64 | | |
| 8 | 645.25 | 9 | 2 | 1 | 9 | 33,10 - 33,37 | 40,52 | | |
| | | | | 2 | 54 | 49,77 - 55,02 | 60,10-66,91 | | |
| | | | | 3 | 9 | 69,08 - 69,68 | 84,47 | | |
| 9 | 441.56 | 12 | 1 | 1 | 12 | 31,50 - 33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85 - 57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80 - 70,46 | 84,47 | | |

## Satış şərtləri və qiymətlər:

Azərbaycan Respublikası Prezidentinin 16.11.2016-cı il tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qaydanın 1.2.10-cu yarımbəndi və 3.2-ci bəndinə əsasən vətəndaşlara güzəştli şərtlərlə təklif olunan mənzillərin satış qiyməti Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən təyin edilmiş orta bazar qiymətindən aşağı müəyyən olunmuşdur.

1 otaqlı mənzillərin qiyməti – **29 925** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **47 282** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **65 626** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **203-236 manat** | **282-288 manat** |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 29 925 | **2 993** | **26 932** |
| 2 | 47 282 | **4 728** | **42 554** |
| 3 | 65 626 | **6 563** | **59 063** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin www.yasamal.mida.az internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış olmaq mümkündür.

***Qeyd: "Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulunun təlimatı ilə öz elektron kabinetlərinin müvafiq bölməsində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.***

# "Qanlı dərə" Quba-Qusar bölgəsində yaşayan xalqların qanlarının bir-birinə qarışdığı müqəddəs məkandır




Martın 29-da Qusarın ictimaiyyət nümayəndələri 1918-ci ildə "Qanlı dərə"də qələbə qazanmış Qusar və Quba qəhrəmanlarının şərəfinə ucaldılmış abidəni ziyarət ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü münasibətilə təşkil edilən mərasimin iştirakçıları abidənin qarşısına gül dəstələri düzüb, soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş yürüşə qatılıblar.

Sonra Qusar Dövlət Rəsm Qalereyasında məktəblilərin 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr etdiyi rəsm işlərindən ibarət sərgiyə baxış keçirilib.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov bildirib ki, 1918-ci ilin inzibati bölgüsünə görə Qusar ərazisi Bakı quberniyasının Quba qəzasına daxil idi. Həmin dövrdə Bakı Xalq Komissarları Sovetinin komissarı Stepan Şaumyanın tapşırığı ilə ermənilərdən ibarət 2 min nəfərlik hərbi dəstə Quba qəzasına göndərilmişdi. Erməni generalı Hamazaspın rəhbərlik etdiyi bu hərbi dəstə 1918-ci ilin yanvar-may aylarında Quba qəzasında 16 mindən çox insanı məhv etmişdi. Soyqırımına məruz qalan sakinlər arasında xeyli sayda ləzgi, tat, yəhudi və digər xalqların nümayəndələri də var idi. Qırğınlar zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdı ki, bunlardan da 35-i xəritədən silinib. Daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar. Onlar qadın, uşaq demədən, qarşılarına çıxan hər kəsi öldürür, evlərə soxularaq ailələri ucdantutma qırırdılar.

Düşmənlər silah-sursat sarıdan nə qədər güclü olsalar da, yerli əhali, əsrlərlə bir yerdə dostluq və qardaşlıq şəraitində yaşamış azərbaycanlılar, ləzgilər, tatlar və digərləri birləşərək onların qarşısını almağa çalışır və bu yolda son nəfəslərinədək müqavimət göstərərək şəhid olurdular. Məhz "Qanlı dərə" bu bölgədə yaşayan xalqların qanlarının bir-birinə qarışdığı müqəddəs məkandır.

Tədbirdə çıxış edən digər natiqlər də erməni millətçilərinin əsrlər boyu azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar, həyata keçirdikləri soyqırımı və deportasiya siyasətinin acı nəticələri barədə danışıblar.

# Soyqırımı qurbanlarının xatirəsi Yevlaxda ehtiramla yad edilib



31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar respublikamızın hər yerində olduğu kimi, Yevlax rayonunda da müxtəlif tədbirlər keçirilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, martın 29-da rayon rəhbərliyi, ziyalılar, ictimaiyyət nümayəndələri, əmək kollektivləri Yevlax şəhərindəki Şəhidlər xiyabanına gələrək 31 mart - Azərbaycanlıların Soyqırımı abidəsi önünə gül dəstələri düzüb, soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Şəhər icra hakimiyyətinin başçısı Qoca Səmədov tədbirdə çıxış edərək ermənilər tərəfindən Azərbaycan xalqına qarşı yüz illər boyu həyata keçirilən soyqırımı və deportasiya siyasətindən danışıb. Bildirilib ki, Azərbaycanın qədim və əzəli torpaqlarında "Böyük Ermənistan" yaratmaq xülyasında olan erməni millətçiləri bu ideyanı həyata keçirmək üçün ən iyrənc üsullara əl atıb, bəşəriyyət tarixində bənzəri olmayan vəhşiliklər, qətliamlar və digər qanlı cinayətlər törədiblər. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı genişmiqyaslı qanlı aksiyalar həyata keçirən erməni daşnakları 1918-ci ilin martında və aprelin əvvəlində Bakı, Şamaxı, Quba, Lənkəran, Qarabağ, Naxçıvan, İrəvan və digər bölgələrdə kütləvi qırğınlar həyata keçirib, on minlərlə soydaşımızı qətlə yetiriblər.

Tədbirdə azərbaycanlıların soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətləri bir daha xatırlanıb. Hazırda bu istiqamətdə ölkə rəhbərliyi, həmçinin Heydər Əliyev Fondu tərəfindən məqsədyönlü və davamlı iş aparıldığı diqqətə çatdırılıb.

# Dini icmalar arasında məqalə müsabiqəsi elan edilib

AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə dini icmaların üzvləri arasında "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda məqalə müsabiqəsi elan edib.

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, müsabiqəyə milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılmasının əhəmiyyətindən, Ulu Öndərin azərbaycançılıq ideologiyasına əsaslanaraq milli-mənəvi dəyərlər sistemimizin daha da gücləndirilməsi, aşınmadan xilas edilməsi, milli-mənəvi dəyərlərə qayıdış və milli oyanış sahəsində atdığı addımlardan bəhs edən məqalələr göndərilə bilər. Həmçinin Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə milli-mənəvi dəyərlərimizin ən önəmli komponentlərindən biri olan dini abidələrimizin bərpası və yenidən inşası, dini-ideoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə hüquqi-inzibati sferada zəruri addımlar atılması, məzhəbçilik, dini nifrət və ayrı-seçkiliyin ölkəmizə ayaq açmasının qarşısının alınması istiqamətində görülən işlərin işıqlandırıldığı məqalələr də qəbul olunur.

Müsabiqəyə təqdim edilən məqalə mövzuya uyğun olmalı, müsabiqə elan olunduqdan sonra məqalə qəzet, informasiya agentlikləri və ya xəbər saytlarında dərc edilməli, həcmi 8 min işarədən artıq olmamalıdır (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində). Yazılar qəzetdə dərc olunarsa A4 formatlı vərəqlərdə (Times New Roman 14 şrift) və 1 nüsxə qəzet şəklində Dövlət Komitəsinə təqdim olunmalıdır, elektron media resursunda yayımlanarsa A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) link əlavə edilərək çap olunmalı və Dövlət Komitəsinə təqdim edilməlidir.

Birinci yerin qalibinə 500 AZN, ikinci yeri tutana 400 AZN, üçüncü yerə layiq görülənə isə 300 AZN mükafat veriləcək. Bundan başqa, üç həvəsləndirici mükafat (100 AZN) da nəzərdə tutulub.

Müsabiqə üçün yazılar aprelin 20-dək təqdim edilməlidir. Ünvan: Bakı şəhəri, Əhməd Cavad küçəsi, 16. Əlaqə telefonları: (012) 505 78 16 / (012) 505 78 19. E-mail: redaksiya@scwra.gov.az.

# "Diqlas"dakı yanğında zərər çəkən sahibkarlara təklif edilən ticarət obyektləri açıqlanıb

İqtisadiyyat Nazirliyi "Diqlas" ticarət mərkəzində baş vermiş yanğında zərər çəkən sahibkarlar üçün 5 ay icarə haqqı ödənilməmək şərtilə təklif olunan ticarət obyektlərinin siyahısını açıqlayıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin ticarət obyektləri aşağıdakılardır:

Dərnəgül şosesində yerləşən "Eurohome" tikinti bazarında ümumi sahəsi 50-100 kvadratmetr arasında dəyişən 30 mağaza - əlaqələndirici şəxs: İlyas Möhnətov (tel: 055 297 1111),

Təbriz küçəsində yerləşən "Eurohome Express"də yerləşən geyim və xırdavat satışı üçün nəzərdə tutulan ümumi sahəsi 40-60 kvadratmetr arasında dəyişən 50 mağaza - əlaqələndirici şəxs: Rauf Əliyev (tel: 050 796 5555),

"Sədərək" ticarət mərkəzində ümumi sahəsi 30 kvadratmetr olan 20 mağaza və 200 kvadratmetr olan 5 anbar - əlaqələndirici şəxs: Fərid Mahmudov (tel: 050 211 8189), Qabil Nəhmədov (tel: 050 213 3368),

AF-COM Plazada yerləşən geyim satışı üçün nəzərdə tutulan ümumi sahəsi 6000 kvadratmetr olan qapalı sahə (20 kvadratmetr olmaqla bölgü aparıla bilər) - əlaqələndirici şəxs: Rauf Əliyev (tel: 055 313 8118),

S.Vurğun küçəsində yerləşən "AF-Center" ticarət mərkəzində tikinti materialları və geyim satışı üçün nəzərdə tutulan ümumi sahəsi 20-50 kvadratmetr arasında dəyişən 50 mağaza - əlaqələndirici şəxs: Şamil İsmayılov (tel: 050 725 0660).

İqtisadiyyat Nazirliyində əlaqələndirici şəxs: Əli Hacıyev (tel: 055 255 8007).

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

# Dövlət tərəfindən göstərilən diqqət və qayğı regionlarda pambıqçılığın inkişafına təkan verir

*Pambıqçılığın inkişafına dair Dövlət Proqramında 2022-ci ildə xam pambıq istehsalının 500 min tona çatdırılması əsas hədəf kimi qarşıya qoyulub*



Ölkəmizdə ixracyönümlü məhsul istehsalının təşviqi istiqamətində həyata keçirilmiş tədbirlər ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələr əldə etməyə imkan verir. Son illərdə bu istiqamətdə qəbul edilmiş Dövlət proqramlarının icrası aqrar sahədə sahibkarlığın inkişafını sürətləndirir, regionlarda əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan daha effektiv istifadə olunmasına, infrastrukturun müasirləşdirilməsinə və əhalinin məşğulluğunun artmasına zəmin yaradır. Bununla yanaşı, regionlarda dövlət vəsaiti hesabına müasir infrastrukturun yaradılması, həmçinin regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramları çərçivəsində məqsədyönlü tədbirlərin həyata keçirilməsi son nəticədə respublikamızda aqrar sektorun keyfiyyətcə yeni inkişaf mərhələsinə çıxmasını təmin edib.

Bu məqamda onu qeyd etmək yerinə düşər ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının yekunlarına toxunarkən kənd təsərrüfatı, o cümlədən aqrar sektora xüsusi diqqət yetirib: **"Kənd təsərrüfatı çox ciddi, çox böyük sahədir. Əhalinin, demək olar ki, yarısı kəndlərdə yaşayır. Ona görə bu sahə daim diqqət mərkəzindədir. İri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində də yaxşı nəticələr var. Proqrama görə, bizdə ümumiyyətlə 51 aqropark və iri fermer təsərrüfatı yaradılmalıdır. Onlardan 17-si yaradılıb və bu 17 aqroparkın ümumi sahəsi 104 min hektardır".**

Dövlət başçısı "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində də kənd təsərrüfatı məhsullarının ixracı məsələlərinə geniş yer ayırıb: **"Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Məhsuldarlığın artırılması istiqamətində işlər görülür. Hesab edirəm ki, bu, yaxın gələcəkdə özünü göstərəcək. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb".**

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, demək olar ki, son illərdə Azərbaycanın regionlarında kənd təsərrüfatı məhsulları istehsalçıları üçün tətbiq olunan güzəştlər pambıqçılığın inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində mühüm rol oynayıb, həmçinin bu sahəyə investisiyaların cəlb olunmasına və pambıq istehsalına marağı artırıb. Bununla yanaşı, indiyədək pambıqçılığın inkişafı ilə bağlı aktual məsələlərin müzakirə edildiyi bir neçə müşavirə keçirilib, müvafiq Dövlət Proqramı qəbul edilib.

Qeyd edək ki, "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılığın inkişafına əlverişli şəraitin yaradılması aqrar siyasətin prioritet vəzifələrindən biri kimi müəyyən edilib. Dövlət Proqramı həmçinin pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsinə və bu sahədə problemlərin həllinə yönəldilib. Proqramın məqsədi isə ölkədə pambıqçılıq məhsullarına tələbatın ödənilməsi, pambıq emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, pambıq məhsullarının ixracının artırılması, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsi və bu sahənin inkişafının stimullaşdırılmasından ibarətdir.

Onu da xatırlatmaq lazımdır ki, Azərbaycanda pambıq istehsalı üçün əlverişli təbii iqlim şəraitinin və ənənələrin mövcudluğu, emal sənayesinin xammala tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları, həmçinin pambıq və ondan hazırlanmış son məhsullar üzrə ixrac potensialı pambıqçılığın daha da inkişaf etdirilməsini zərurətə çevirir. Bu baxımdan, "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi Azərbaycanda pambıqçılıq ənənələrinin bərpa olunmasına, pambıq emalı məhsulları üzrə idxaldan asılılığın azaldılmasına, kənd yerlərində əhalinin məşğulluğuna, aqrar sənaye potensialının artırılmasına, ixrac imkanlarının genişləndirilməsinə və ölkəyə əlavə valyuta daxilolmalarına şərait yaradır. Eyni zamanda, görülən tədbirlər nəticəsində qabaqcıl texnologiyaların geniş tətbiqinə əsaslanan pambıq istehsalı və emalı kompleksi təşəkkül tapır, yerli pambıq xammalına əsaslanan tekstil sənayesi formalaşır. Dövlət Proqramının icrası nəticəsində 2022-ci ildə xam pambıq istehsalının 500 min ton təşkil edəcəyi planlaşdırılır.

Regionlarda pambıq əkilib-becərilməsinin geniş şəkildə təşviq edilməsi, öz növbəsində, yaxşı nəticələr verməkdədir. Respublikamızda gələcəkdə pambıq tədarükünü artırmaq üçün geniş imkanlar mövcuddur. Ayrı-ayrı bölgələrin pambıq tədarükündə əldə etdikləri nəticələr də deyilənləri təsdiq edir.

Belə ki, respublikamızın əsas pambıqçılıq rayonlarından olan Goranboyda ötən il 5000 hektarda pambıq əkilib, 9136 tondan çox məhsul toplanaraq qəbul məntəqələrinə təhvil verilib. Tədarük edilən pambığın 5352 tonu və ya 58,5 faizi maşınla yığılıb. Builki mövsüm üçün pambıq əkini üçün də hazırlıq işləri görülməkdədir. Rayon İcra Hakimiyyətindən bildirilib ki, nəticədə mövsümi işlərə 2157 nəfər cəlb olunub. Cari ilin məhsulu üçün bu günədək 3100 hektar sahədə pambıq əkini üçün müqavilə bağlanıb, şum aparılıb. Bu il pambıq əkininin yüksək texnologiyalar tətbiq etməklə ancaq yararlı torpaqlarda əkilməsi nəzərdə tutulub.

Ötən il məhsul tədarükünə və hər hektarın məhsuldarlığına görə respublikanın pambıqçılıq rayonları arasında ön sıralarda olan Ağcabədi rayonunun pambıqçıları da cari ilin çiyid səpininə hazırlıq görürlər. Xatırladaq ki, 2018-ci ildə Ağcabədi rayonunda 10 min hektarda pambıq əkilib, 23 min 304,91 ton məhsul istehsal edilib, orta məhsuldarlıq 23,3 sentner olub. 2017-ci illə müqayisədə pambıq əkini sahələri 4,7 faiz, pambıq istehsalı isə 13,6 faiz artıb.

Ağcabədili fermerlər 2019-cu təsərrüfat ilinə daha hazırlıqlı başlayıblar. Belə ki, 5145,5 hektarı "MKT İstehsalat Kommersiya" MMC, 4000 hektarı "Azərpambıq" MMC və 1300 hektarı "P-Aqro" MMC ilə olmaqla, 10 min 445,5 hektarda pambıq əkini üçün 1686 istehsalçı ilə müqavilə bağlanıb. Pambıq becəriləcək sahələr şumlanıb, qış aratına qoyulub. Hazırda şumun malalanması işləri həyata keçirilir. Çiyid səpininə optimal temperatur yarandığı təqdirdə mart ayının sonu - aprel ayının əvvəllərində başlanacaq.

Yeri gəlmişkən, cəbhə bölgəsində yerləşən Tərtər və Ağdam rayonlarında fermer və torpaq mülkiyyətçiləri çiyid səpininə hazırlaşırlar.

Tərtər rayonunda artıq 1180 istehsalçı ilə 2017 hektarı "MKT İstehsalat Kommersiya" MMC, 1350 hektarı "Azərpambıq" MMC və 60 hektarı "P-Aqro" MMC ilə olmaqla, 3427 hektarda pambıq əkini üçün müqavilə bağlanıb. Pambıq becəriləcək sahələr şumlanıb, qış aratına qoyulub. Çiyid səpininə optimal temperatur yarandığı təqdirdə mart ayının sonu - aprel ayının əvvəllərində başlanacaq. Qeyd edək ki, 2017-ci ildə 3123 hektar sahədən 8419,9 ton məhsul tədarük edərək orta məhsuldarlığa görə respublikanın pambıqçılıq rayonları arasında ön sırada dayanan Tərtər pambıqçıları 2018-ci ildə də yüksək nəticəyə nail olublar. 3300 hektar sahədən 8196,5 ton məhsul tədarük edilib. Hər hektar pambıq sahəsində orta məhsuldarlıq 24,8 sentner olub. 2014-2018-ci illərdə Tərtər rayonunda pambığın əkin sahəsi 3,6 dəfə, məhsul istehsalı 4,1 dəfə, hər hektardan məhsuldarlıq 13,2 faiz artıb.

Ağdam rayonunda isə 1350 hektarı "MKT İstehsalat Kommersiya" MMC, 600 hektarı "Azərpambıq" MMC və 650 hektarı "P-Aqro" MMC ilə olmaqla, 2600 hektarda pambıq əkini üçün müqavilə bağlanılıb. Pambıq becəriləcək sahələr qış aylarında şumlanıb, arata qoyulub. Hazırda şumun malalanması işləri həyata keçirilir. Çiyid səpininə optimal temperatur yarandığı təqdirdə aprel ayının birinci ongünlüyündə başlanacaq. Qeyd edək ki, 2018-ci ildə Ağdam rayonunda 3100 hektar sahədə pambıq əkilib, 5822,2 ton məhsul istehsal olunub.

Respublikamızın ən iri pambıqçılıq rayonlarından olan Beyləqanda da fermer və torpaq mülkiyyətçiləri çiyid səpininə hazırlaşırlar. Artıq 1912 istehsalçı ilə 5317 hektarı "MKT İstehsalat Kommersiya" MMC, 3358 hektarı "Azərpambıq" MMC və 1000 hektarı "P-Aqro" MMC ilə olmaqla, 9675 hektarda pambıq əkini üçün müqavilə bağlanıb. Pambıq becəriləcək sahələr şumlanıb, qış aratına qoyulub. Hazırda şumun malalanması işləri həyata keçirilir. Çiyid səpininə optimal temperatur yarandığı təqdirdə aprel ayının əvvəllərində başlanılacaq.

Qeyd edək ki, 2018-ci ildə Beyləqan rayonunda 9560 hektar sahədə pambıq əkilib, 21,9 min ton məhsul istehsal edilib, orta məhsuldarlıq 22,9 sentner olub. 2017-ci illə müqayisədə pambıq əkini sahələri 11,8 faiz, məhsul istehsalı 6,2 ton, hər hektarın məhsuldarlığı isə 4,5 sentner artıb.

Böyük pambıqçılıq ənənələrinə malik rayonlardan biri olan Saatlıda ötən il 15 min 815 hektar pambıq sahəsindən 30 min 447 ton məhsul yığılıb. Pambıqçılar cari ildə məhsul istehsalını 32 min tona çatdırmağı qarşıya məqsəd qoyublar. Rayonda cari ilin məhsulu üçün çiyid səpininə hazırlıq işləri görülür. Saatlı rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, bu il Saatlıda 13 min 742 hektar sahədə pambıq əkini aparmaq nəzərdə tutulub. Bu məqsədlə rayonda fəaliyyət göstərən 4 pambıq emalı müəssisəsi 2 min 473 məhsul istehsalçısı ilə müqavilə bağlayıb, 15 min hektar sahədə qış şumu aparılaraq arata qoyulub, suvarma kanalları lildən təmizlənib. Hazırda çiyid səpiləcək sahələrdə malalama işlərinə hazırlıq görülür və bəzi ərazi nümayəndəliklərində bu işə başlanılıb.

**Qaşqay RAMAZANOV**

# Qida Təhlükəsizliyi Agentliyi şəffaflığı və effektivliyi artırmaq üçün sahibkarlara və vətəndaşlara müraciət edib




Bu gün ölkəmizdə qida sahəsində aparılan islahat xarakterli tədbirlər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Strateji Yol xəritələrinin və islahatlar dalğasının növbəti bir mərhələsi və tərkib hissəsidir. Milli iqtisadiyyat perspektivləri üzrə həyata keçirilən islahatlar, kənd təsərrüfatı və qida sənayesi sektorunda müasir standartların tətbiqi, qida təhlükəsizliyinə nəzarət sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi böyük əzm və qətiyyətlə davam etdirilir. Hazırda ölkəmizdə qida zənciri boyu məhsulların izlənilməsini, istehlakçıların və sahibkarların hüquqlarının qorunmasını özündə əks etdirən risk əsaslı yeni nəzarət sistemi qurulur.

Qida Təhlükəsizliyi Agentliyinin informasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu istiqamətdə effektiv nəticələrin əldə olunması üçün hər bir vətəndaşın prosesdə iştirakı və həyata keçirilən tədbirlərə, tətbiq olunan yeniliklərə obyektiv münasibəti xüsusi əhəmiyyət daşıyır, çünki qurulan yeni qida təhlükəsizliyi sistemi bu sahəyə ictimai marağı, vətəndaş mövqeyini və iştirakını tələb edir.

Təbii ki, ölkəmizdə qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi və əhalinin təhlükəsiz qida məhsulları ilə təmin olunması istiqamətində həyata keçirilən islahat xarakterli tədbirlər bu sahədə uzun illərdən bəri insanların təhlükəsizliyi və gələcək nəsillərin sağlamlığı bahasına qanunsuz olaraq külli miqdarda gəlir əldə etmiş müəyyən şəxslər tərəfindən heç də xoş qarşılanmır. Ancaq əhalinin təhlükəsiz qida məhsulları ilə təmin olunması istiqamətində agentlik tərəfindən aparılan yoxlama nəzarət tədbirləri zamanı aşkar olunan qanunsuz hallara qarşı qanunvericilik çərçivəsində ən sərt tədbirlər həyata keçirilir.

Qida sahəsində həyata keçirilən nəzarət tədbirlərində şəffaflıq və effektivliyin daha da artırılması üçün sahibkarları və vətəndaşları prosesdə aktiv iştirak etməyə dəvət edən agentliyin müraciətində deyilir: **"Əməkdaşlarımız tərəfindən sahibkarlıq subyektlərində həyata keçirilən yoxlama-nəzarət tədbirləri, baytarlıq və fitosanitariya nəzarəti, idxal-ixrac proseslərində sənədləşmə, qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qeydiyyatı zamanı sahibkar və ya hər hansı bir vətəndaş tərəfindən qanunsuz hal müşahidə olunarsa, bununla əlaqədar hüquq-mühafizə orqanlarına məlumat verməlləri xahiş olunur.**

**Qida sahəsində qanunsuz fəaliyyət və pozuntuların vaxtında və operativ şəkildə qarşısının alınması üçün bir daha vətəndaşları prosesdə aktiv iştirak etməyə və neqativ hallarla bağlı agentliyin 1003 "Qaynar xətt"inə və ya aidiyyəti üzrə hüquq-mühafizə orqanlarına məlumat verməyə çağırırıq".**

# Ağcabədi rayonunda 54 min 401 nəfər kütləvi tibbi müayinədən yararlanıb





Ölkəmizdə həyata keçirilən əhalinin tibbi dispanserizasiyası çərçivəsində Ağcabədi rayonunda fevralın 12-dən etibarən 11 yaşayış məntəqəsinin sakinləri və 60 idarə-müəssisənin kollektivi olmaqla, 54 min 401 nəfər müayinə edilib.

Ağcabədi Rayon İcra Hakimiyyətindən AZƏRTAC-ın bölgə müxbirinə bildiriblər ki, sakinlərdən 71 nəfəri ambulator, 43 nəfəri stasionar müalicəyə cəlb edilib, 23 nəfər ixtisaslaşmış tibb müəssisələrinə göndərilib, 16 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılıb.

Müayinələrin keçirildiyi rayon mərkəzi xəstəxanası ən müasir tibbi avadanlıq və aparatlarla təchiz edilib. Müayinələri əsasən, terapevt, oftalmoloq, nevropatoloq, stomatoloq, kardioloq və digər tibb mütəxəssisləri aparırlar. Vətəndaşlar ehtiyac olduqda kardioqram, ultrasəs, rentgen, laborator müayinələrdən də keçirilir. Aşkara çıxarılan xəstəliklər üzrə müalicə kursları təyin edilir. Yüksəkixtisaslı mütəxəssislərdən ibarət həkim briqadası tərəfindən rayonun qəsəbə və kəndlərində də əhalinin tibbi müayinəsi həyata keçirilir.

Ümumilikdə tibbi müayinədən rayonun 46 yaşayış məntəqəsində yaşı 18-dən yuxarı olan 99 min 748 nəfərin keçməsi nəzərdə tutulub.

# Zərdabın 12 yaşayış məntəqəsində vətəndaşların kütləvi tibbi müayinəsi başa çatıb





Zərdabda əhalinin kütləvi tibbi müayinəsi müvəffəqiyyətlə davam edir və artıq 12 yaşayış məntəqəsində bu humanist aksiya başa çatıb.

Rayon mərkəzi xəstəxanasından AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, aksiya çərçivəsində 18 yaşdan yuxarı 35 min 886 nəfər tibbi müayinədən keçməlidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən və əhali tərəfindən böyük razılıqla qarşılanan bu humanist aksiyadan indiyədək 14 min 311 nəfər yararlanıb. Onlardan 365 nəfər ambulator, 12 nəfər stasionar müalicəyə cəlb edilib. 12 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılıb, 10 nəfər isə Bakı şəhərinə, ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilib.

Əhalinin tibbi müayinəsi lazımi şərait yaradılan rayon mərkəzi xəstəxanasında, xəstəxananın poliklinika şöbəsində, habelə Körpükənd və Məlikli kənd sahə xəstəxanalarında aparılır. Yaşayış məntəqələrinin sakinləri, idarə və təşkilatların kollektivləri tərtib olunan qrafik əsasında hər gün məntəqələrə gəlir, təşkil olunan həkim briqadaları tərəfindən müayinə edilirlər. Gəlmək imkanı olmayan ahıl insanların müayinəsi xüsusi səyyar briqada tərəfindən evlərdə aparılır.

Rayon mərkəzi xəstəxanasına tibbi müayinəyə gələn Hüseynxanlı kənd sakini 73 yaşlı Namizəd Əhmədov AZƏRTAC-ın bölgə müxbirinə deyib: **"Artıq bir neçə ildir ki, hamı kimi mən də pulsuz tibbi müayinədən yararlanıram. Bizə göstərilən bu qayğıya görə Prezidentimizə minnətdaram. Axı, bu kampaniya Prezidentimizin təşəbbüsü ilə keçirilir. Bu təşəbbüs vətəndaşların sağlamlığına göstərilən diqqət və qayğının parlaq təzahürüdür".**

Təsisçi
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**498-78-03, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**
**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU